# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Türk xalqlarının inteqrasiyasında tarixi hadisə



5

№ 194 (7362)

SƏS

23 oktyabr 2025-ci il.
Qiymәti 60 qәpik

# Prezident İlham Əliyev Yaqub Eyyubova "İstiqlal" ordenini təqdim edib



2

# Rusiya daha sərt miqrasiya siyasətinə keçir - məqsəd nədir?



4

## Azərbaycanda maklerlərin fəaliyyəti niyə hələ qanunla tənzimlənməyib?



11

## 7 illik güzəşt müddəti bitir: bəs vergi faizi nə qədər olacaq?



16

## Uzun iş saatları və az istirahət: Azərbaycan və dünya qanunvericiliyində əmək hüquqları



14

## "İnsan texnologiyanın sahibi olmalıdır, əsiri yox"



11

## Qlobal psixotron terror: müdafiə olunmayanlar məhv olacaq



10



# Prezident İlham Əliyev Yaqub Eyyubova "İstiqlal" ordenini təqdim edib



***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 22-də Yaqub Eyyubovu qəbul edib və ona "İstiqlal" ordenini təqdim edib. AZƏRTAC xəbər verir ki, Yaqub Eyyubovu salamlayan Prezident İlham Əliyev dedi:***

-Hörmətli Yaqub müəllim, ilk növbədə, sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illər müxtəlif məsul vəzifələrdə işləyərkən Azərbaycanın inkişafına öz töhfənizi vermisiniz. Mən bunu yüksək qiymətləndirirəm. Siz də bilirsiniz, mən də bilirəm ki, Ulu Öndər Heydər Əliyev sizə həmişə diqqət göstərmişdir. Ötən əsrin 70-ci illərində sizi gənc kadr kimi məsul vəzifələrə təyin etmişdi və sizə böyük etimad göstərmişdi. Siz də bu etimadı layiqincə doğrultmusunuz. Məhz buna görə müstəqillik dövründə Ulu Öndər xalqın tələbi ilə 1993-cü ildə hakimiyyətə gələndən sonra sizi bir neçə məsul vəzifəyə təyin edərək, bir daha sizə etimad göstərmişdir.

Onun Sərəncamı ilə siz böyük vəzifə olan Baş nazirin birinci müavini təyin olunmusunuz və o illərdən bəri bu vəzifədə çalışırsınız. 22 il ərzində mənim prezidentlik dövrümdə də sizə dəfələrlə etimad göstərmişəm, hər prezident seçkilərindən sonra sizi həmin vəzifəyə yenidən təyin edirdim. Bu gün sizə bu dövlət mükafatını təqdim edərkən demək istəyirəm ki, mən sizin işinizdən razıyam. Siz canla-başla, sədaqətlə dövlətə, vətənə xidmət edirsiniz. Öz işinizdə həmişə tələbkarsınız və mənim göstərişlərimi layiqincə yerinə yetirirsiniz. Sizin böyük xidmətlərinizi nəzərə alaraq mən sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif etmişəm və icazə verin, bu yüksək ordeni sizə təqdim edim.

Prezident İlham Əliyev "İstiqlal "ordenini Yaqub Eyyubova təqdim edərək dedi: Sizi təbrik edirəm.

Yaqub Eyyubov: Təşəkkür edirəm.

Fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Yaqub Eyyubov Ümummilli Lider Heydər Əliyev ilə bağlı xatirələrini bölüşdü, Ulu Öndərin və Prezident İlham Əliyevin ona göstərdikləri etimadı həmişə doğrultmağa çalışdığını bildirdi. O, məhz dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu qeyd edərək dedi: "Siz dahi şəxsiyyətsiniz ki, Azərbaycanın torpaqlarını geri qaytardınız. Bunu heç kim edə bilməzdi, mümkün də deyildi. Siz gözəl, yüksək bacarıqlı, dahi bir insansınız. Ona görə də bütün xalq, bütün dünya Sizi görür, Sizinlə qürur duyur".

"İstiqlal" ordeni ilə təltif olunmasının onun üçün böyük şərəf olduğunu vurğulayan Yaqub Eyyubov bildirdi: "Mən həyatım boyu bunu unutmaram və çalışacağam ki, imkanım daxilində, nə qədər imkan varsa, Sizə və dövlətimizə xidmət edim".

Prezident İlham Əliyev: Çox sağ olun.

# "Estoniya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrini dəstəkləyir"

## *Prezident İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib*



***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 22-də Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahknanı qəbul edib. Estoniyanın xarici işlər naziri Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.***

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, bu məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi rolunu vurğuladı. Vaşinqton görüşündəki razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında nəqliyyat bağlantısının açılmasının önəminə toxundu.

Estoniyanın xarici işlər naziri Ermənistanın Qazaxıstandan idxal etdiyi taxılın Azərbaycan ərazisindən tranzit yolu ilə daşınmasına ölkəmiz tərəfindən icazə verilməsinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində mühüm addım olduğunu vurğuladı.

Nazir ölkəmizə geniş tərkibdə biznes nümayəndə heyəti ilə gəldiyini və Bakıda biznes-forumun keçirildiyini dedi, bu cür tədbirlərin ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi.

Qonaq Estoniyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrini dəstəklədiyini qeyd edərək, hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafındakı müsbət dinamikanın məmnunluq doğurduğunu dedi.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə Tirana və Kopenhagendə görüşlərini məmnunluqla xatırladı, ölkəmizlə Avropa İttifaqı arasında enerji, nəqliyyat bağlantıları və digər sahələrdə əməkdaşlıq üçün yeni perspektivlərin açıldığını qeyd etdi.

Qonaq COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə də təbriklərini çatdıraraq, bu tədbirdə beynəlxalq iqlim gündəliyi ilə bağlı ciddi nəticələrin əldə edildiyini vurğuladı. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Qazaxıstan mətbuatı: Azərbaycan Prezidentinin səfəri qardaşlığın və strateji etimadın möhkəmlənməsinin təzahürü oldu

Qazaxıstan mediası Azərbaycan Prezidenti İlham Əliyevin Astanaya dövlət səfərini geniş işıqlandırıb. "Ulysmedia.kz" portalında dərc olunan materialda Xəzər dənizi hövzəsində yeni strateji xəttin formalaşmasından bəhs olunur. Qeyd edilir ki, Qazaxıstan və Azərbaycan bu prosesdə bir-birini təkcə tərəfdaş kimi deyil, həm də Avrasiyanın formalaşan memarlığında əsas müttəfiqlər kimi görür.




"Müasir Qazaxıstan Türk dünyasında balanslaşdırıcı rol oynayır, Azərbaycan isə Qarabağın geri qaytarılmasından sonra regional çəkisini möhkəmləndirmiş ölkə kimi çıxış edir. Hər iki dövlət, mahiyyət etibarilə Türk Dövlətləri Təşkilatında etimadın təməlini formalaşdırır, emosiyaların deyil, sistemli yanaşmanın üstünlük təşkil etdiyi gündəmi müəyyənləşdirir", - deyə məqalədə bildirilir.

"Zakon.kz" portalında yer alan yazıda Qazaxıstan və Azərbaycanın regional birliklərdə və beynəlxalq təşkilatlarda birgə və proaktiv iştirakının böyük əhəmiyyət daşıdığı vurğulanır. Xüsusi qeyd olunur ki, hər iki tərəfin mövqeləri Türk Dövlətləri Təşkilatının fəaliyyətində parlaq şəkildə özünü göstərir, burada çoxşaxəli və çoxtərəfli regional əməkdaşlıq həyata keçirilir.




"Qazaxıstan-Azərbaycan münasibətlərini yalnız iki ölkə arasındakı qarşılıqlı fəaliyyət deyil, həm də Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında sülh və dəmir inkişafın təminatı kimi dəyərləndirmək olar. Bundan əlavə, bu təmaslar Avropa və Asiyanın iri regional bazarlarının birləşməsi üçün geniş iqtisadi imkanlar açır", - deyə məqalədə qeyd olunur.

Beynəlxalq "Kazinform" informasiya agentliyi xəbər verir ki, Azərbaycan Prezidentinin Qazaxıstana dövlət səfəri çərçivəsində energetika, nəqliyyat-logistika, rəqəmsallaşma və süni intellekt, sənaye təhlükəsizliyi, səhiyyə, statistika, eləcə də mədəni-humanitar əlaqələr sahələrində əməkdaşlığa dair 15 sənəd imzalanıb. "Baq.kz" saytında dərc olunan materialda bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana dövlət səfəri iki ölkə arasında strateji münasibətlərin inkişafında mühüm mərhələ olub.

"Bakı ilə Astana arasında əməkdaşlığın hazırkı səviyyəsi sabit dinamika və yüksək etimad səviyyəsi ilə fərqlənir, danışıqların nəticələri isə iqtisadiyyat, nəqliyyat və texnologiyalar sahələrində yeni birgə təşəbbüslər üçün əsas yarada bilər", - deyə məqalədə vurğulanır. "Kazpravda.kz" nəşri qeyd edir ki, Qazaxıstan və Azərbaycanı çoxəsrlik qardaşlıq bağları, mənəvi və mədəni yaxınlıq birləşdirir.

# Azərbaycan-Qazaxıstan: ümumi köklərə əsaslanan çoxəsrlik dostluq

## Prezident İlham Əliyev: "Xalqımız, ölkəmiz üçün ən ağır dövrlərdə biz həmişə qardaş dəstəyini hiss etmişik, hər zaman bunu görmüşük"

"Xalqlarımızı ümumi köklərə, mənəvi və mədəni ortaqlığa əsaslanan çoxəsrlik dostluq, qardaşlıq birləşdirir. Dövlətlərarası münasibətlərimizi bu möhkəm bünövrə üzərində qururuq. Hətta son üç ildə ondan çox qarşılıqlı səfərlərə baxdıqda münasibətlərimizin necə intensiv xarakter daşıdığını əyani şəkildə görmək olar. Hər bir görüş, hər müzakirə son nəticəyə yönəlib". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında bildirib.

Prezident İlham Əliyevin mətbuata bəyanatında söylədiyi fikirlər ölkələər arasında münasibəətlərin dinamik inkişaf etməsinin təzahürüdür. Dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında əlaqələrə mühüm töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və daha da güclənməsinə xidmət edir. Azərbaycan Prezidentinin vurğuladığı kimi, "Xalqımız, ölkəmiz üçün ən ağır dövrlərdə biz həmişə qardaş dəstəyini hiss etmişik, hər zaman bunu görmüşük. İşğal dövründə Qazaxıstan bütün beynəlxalq platformalarda, Azərbaycanın bütün beynəlxalq təşəbbüsləri çərçivəsində həmişə bizi dəstəkləyib, bizimlə həmrəyliyə səs verib və Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğun nizamlanmasına kömək edib".

Əlbəttə ki, Azərbaycan və Qazaxıstanı çoxəsirlik qardaşlıq münasibətləri birləşdirir. Ümummilli Lider Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin uğurlu xarici siyasi fəaliyyəti və qətiyyətli mövqeyi sayəsində Azərbaycan bölgədə böyük nüfuz sahibi olan ölkəyə çevrilib. Azərbaycan dünyada özünü etibarlı tərəfdaş kimi təsdiq edərək beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə nail olmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan Mərkəzi və Orta Asiya ölkələri ilə də sıx siyasi və iqtisadi əlaqələrə malikdir. Xalqlarımızın dil, din, mədəniyyət, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda ortaq tarixə malik olması bu əlaqələrə təsir göstərən mühüm amillərdən biridir. Ölkəmizin Mərkəzi və Orta Asiyanın türkdilli dövlətləri arasındakı münasibətləri yüksələn xətlə inkişaf etməsinə Azərbaycanın Qazaxıstanla olan əlaqələri də müstəsnadər. Azərbaycan-Qazaxıstan əlaqələrinin bütün sahələrdə uğurla inkişafı, iki ölkə arasında imzalanan sənədlər strateji münasibətlərin və müttəfiqlik əlaqələrinin daha da mökəmlənməsinə, ölkələrimiz arasında əməkdaşlığın ildən-ilə güclənməsinə gətirib çıxarır. Azərbaycan-Qazaxıstan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana növbəti səfəri çərçivəsində müxtəlif sahələr üzrə sənədləərin imzalanması Azərbaycan və Qazaxıstan arasındakı əlaqələrin yüksək səviyyəyə çatmasına xidmət edəcəkdir. Belə ki, oktyabrın 21-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədlərinin mübadiləsi mərasimi olub. Əvvəlcə prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayev "Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Kemeleviç Tokayevin Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanmasının 20 illiyi münasibətilə Birgə Bəyanatı"nı, "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə dair 1 saylı Qərarı"nı və "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Xarici İşlər Nazirləri Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə 2 saylı Qərarı"nı imzalayıblar. Daha sonra Azərbaycan-Qazaxıstan sənədləri mübadilə olunub.

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində



əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Qazaxıstan Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Memorandum" və digəər sənəədlərinin imzalanması olub.

### "KURMANQAZI ADINA UŞAQ YARADICILIQ MƏRKƏZİ BU GÜN TƏKCƏ UŞAQLARIN TƏHSİLİ VƏ İNKİŞAFI OCAĞI DEYİL..."

Müasir dövrümüzdə Prezident İlham Əliyev bütün dünyada Azərbaycanı tarixi Zəfərə, Təhlükəsizlik Şurasının qətnamələrinə tam müvafiq olaraq ərazi bütövlüyünün bərpa edilməsinə gətirib çıxarmış ŞƏXSIYYƏT kimi tanınır və Ona böyük ehtiram bəslənilir. Qazaxıstanın Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərində iştirakı iki ölkə arasında dostluğun ən bariz nümunələrindən biridir. Qazaxıstan tərəfindən Füzuli rayonunda tikilmiş Kurmanqazı adına Yaradıcılıq Mərkəzi xalqlarımız arasında dostluğu və qardaşlığın daha bir nümunəsidir. Azərbaycan - Qazaxıstan münasibətləri dərin köklərə malikdir. 44 günlük Vətən müharibəsi dövründə Qazaxıstan dövləti, bütün qazax xalqı haqq-ədalətin yanında olub və ölkəmizin haqlı mübarizəsini dəstəklədilər. "Azərbaycanın bütün vətəndaşları, o cümlədən indi azad olunmuş Qarabağda yaşayanlar Qarabağın dirçəlişində Prezident Tokayevin və qardaş Qazaxıstan xalqının rolunu həmişə minnətdarlıqla qeyd edirlər. Prezident Tokayevlə Füzulidə açılışını etdiyimiz Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi bu gün təkcə uşaqların təhsili və inkişafı ocağı deyil, həm də qardaşlığımızın və dostluğumuzun rəmzidir. Qarabağ bölgəsinə istər avtomobil nəqliyyatı ilə, istərsə də avianəqliyyatla səfər edən istənilən şəxs, - Füzulidən başqa bölgələri ziyarət etmək üçün istifadə edənlər, - Kurmanqazı adına Mərkəzin yaxınlığından keçərkən hər bir Azərbaycan vətəndaşı və ölkəmizin qonağı qardaş köməyinin şahidi olur. Bu, bizim, o cümlədən Qazaxıstanın qardaş köməyi sayəsində genişmiqyaslı "Böyük Qayıdış" layihəsini uğurla həyata keçirdiyimiz bir vaxtda müstəsna əhəmiyyətə malikdir", - deyə Azərbaycan Prezidenti çıxışında bildirib.

### "ZƏNGƏZUR DƏHLİZİNİN AÇILIŞI 2028-Cİ İLİN SONUNA QƏDƏR BAŞ VERƏ BİLƏR"

Orta Dəhliz layihəsinin reallaşdırılması çərçivəsində əldə olunanlar, həmçinin qarşıdakı planlarla bağlı dövlətimizin başçısının səsləndirdiyi fikirləri maraq doğurur. Çin və Orta Asiya ölkələrini Avropa dövlətləri ilə birləşdirməkdə əsas nəqliyyat-logistika marşrutu olan Orta Dəhliz regional və qitələrarası ticarətin möhkəmlənməsində strateji rol oynayır. Çindən Azərbaycana daşımaların həcmi getdikcə çoxalır və 2030-cu ilədək bunun hazırkı dövrlə müqayisədə 3 dəfə artması proqnozlaşdırılır. Bu isə öz növbəsində layihənin əhəmiyyətini daha da artırır. "Bu gün Orta Dəhliz layihəsinin reallaşdırılması çərçivəsində əldə olunanlar, həmçinin qarşıdakı planlarla bağlı təqdimat da etdik", - deyən Azərbaycan Prezidenti bildirib ki, hazırda biz hər şeyi planlaşdırır və həyata keçiririk, Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində avtomobil və dəmir yolu əlaqəsi üzrə bütün işlər gələn ilin ortalarında başa çatdırılacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də bütün bunlar analoji sürətlə həyata keçiriləcək və belə olan halda Zəngəzur dəhlizinin açılışı 2028-ci ilin sonuna qədər baş verə bilər", - deyə Prezident bildirib.

### "AĞ EVDƏ PREZİDENT TRAMPIN İŞTİRAKI VƏ ONUN BU PROSESƏ FƏAL KÖMƏYİ İLƏ SÜLH SAZİŞİNİN PARAFLANMASINDAN SONRA QAZAXISTAN BİRİNCİLƏR SIRASINDA BU MƏSƏLƏYƏ ÖZ MÜNASİBƏTİNİ BİLDİRİB"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7-8 avqust 2025-ci il tarixlərində Amerika Birləşmiş Ştatlarına (ABŞ) işgüzar səfəri ikitərəfli münasibətlərdə və regional sülh prosesində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. ABŞ Prezidenti Donald Trampın dəvəti ilə baş tutan səfər çərçivəsində bir sıra mühüm sənədlər imzalanmış, tarixi qərarlar qəbul edilmiş və Azərbaycanın milli maraqlarının qorunması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Səfər zamanı ABŞ Prezidenti tərəfindən Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqi dayandırılmışdır. 1992-ci ildə qəbul edilmiş bu düzəliş Azərbaycanı ədalətsiz sanksiyalara məruz qoymuşdu və onun ləğvi ikitərəfli münasibətlərdə mənfi mirası aradan qaldırmaq baxımından rəmzi əhəmiyyət daşıyır. Səfər çərçivəsində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin sammiti keçirilmiş və bu görüşün nəticəsində Birgə Bəyannamə imzalanmışdır. Sənədə Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən imza atılmış, ABŞ Prezidenti Donald Tramp isə şahid qismində iştirak etmişdir. Birgə Bəyannamənin müddəalarına əsasən, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması; ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanması barədə birgə müraciət; Regionda kommunikasiyaların açılması, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi; "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin həyata keçirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin ABŞ səfəri Azərbaycanın xarici siyasətində mühüm dönüş nöqtəsi kimi dəyərləndirilir. Azərbaycan Prezident "Avqustun 8-də Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı və onun bu prosesə fəal köməyi ilə sülh sazişinin paraflanmasından sonra Qazaxıstan birincilər sırasında bu məsələyə öz münasibətini bildirib", - deyərək, bildirib ki, Mənim Kasım-Jomart Kemeleviç ilə telefon danışığım olub, ona əldə edilən razılaşmaların bütün detalları haqqında məlumat vermişəm və bir daha Azərbaycana qardaş münasibətinin şahidi olmuşam: "Biz bu gün də Ali Dövlətlərarası Şuranın iclası çərçivəsində bu məsələ haqqında da, ümumiyyətlə həmin razılaşmaların Cənubi Qafqaza və daha geniş coğrafiyaya, o cümlədən nəqliyyat-logistika sahəsinin inkişafına müsbət təsiri barədə danışmışıq. Həmçinin deməliyəm ki, Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Zənnimcə, bu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir".

### "AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA SÜLH DÖVRÜ BAŞLAYIB"

Azərbaycan Prezidenti onu da bildirib ki, avqustda keçirilən Vaşinqton Sammitinin nailiyyətlərindən biri TRIPP (The Trump route for international peace and prosperity) layihəsidir: "Prezident Tramp layihəyə öz adını verib və bu, layihənin mütləq reallaşdırılacağından xəbər verir. Bununla da Orta Dəhlizin daha bir marşrutu açılır. Ənənəvi olanlara daha biri əlavə olunur - Zəngəzurdan ən yüksək müasir standartlarla 15 milyon ton yük dövriyyəsi. Beləliklə, Asiyadan Avropaya və əks istiqamətdə bizim ölkələrimizdən keçən yüklərin həcmi özlüyündə artım potensialına malikdir, amma həm də onların qəbulu və göndərilməsi üçün daha da böyük potensial olacaq".

"Azərbaycan ilə Ermənistan arasında sülh dövrü başlayıb", - deyən Prezident qeyd edib ki, bu gün yeni mərhələ başlayır, hətta deyərdim ki, yeni dövr başlayıb - Azərbaycan ilə Ermənistan arasında sülh dövrü. Son hərbi toqquşmalardan cəmi iki il keçməmiş sülh sazişinin paraflanması hər iki ölkənin kifayət qədər yüksək səviyyədə siyasi iradə nümayiş etdirməsindən xəbər verir.

***Zümrüd BAYRAMOVA***

# Rusiya daha sərt miqrasiya siyasətinə keçir - məqsəd nədir?



***Oktyabrın 15-də Rusiya prezidenti Vladimir Putin Rusiyanın 2026-2030-cu illər üçün miqrasiya siyasətinin yeni konsepsiyasını təsdiq edən 738 saylı fərman imzalayıb. Rusiya MDB ölkələrindən vizasız miqrantların mahiyyət etibarilə qeyri-məhdud qəbulundan onların axınını məhdudlaşdırmağa, daha sərt nəzarət tətbiq etməyə və yalnız konkret iqtisadi sektorlar və müəssisələr üçün lazım olanları seçməyə doğru irəliləyir.***

Dəyişikliklər ilk növbədə hədəf təyin etmə sisteminə təsir edir. 2018-ci il oktyabrın 31-də təsdiq edilmiş konsepsiyanın əvvəlki variantında əsas məqsəd "ölkənin sosial-iqtisadi, coğrafi və demoqrafik inkişafı sahəsində problemlərin həlli" kimi göstərilib. Konsepsiyanın yeni redaksiyasında isə "dövlət təhlükəsizliyinin təmin edilməsi" prioritet təşkil edib, ondan sonra sənədin əvvəlki versiyalarında əksini tapan bütün digər məqsədlər qoyulub. Məhz təhlükəsizliyin təmin edilməsi zərurəti Ukraynada NATO ilə hərbi münaqişə və və Qərbin Rusiyada terror aktları törətmək üçün Mərkəzi Asiya miqrantlarından istifadə etmək üçün fəal cəhdləri kontekstində qəbul edilmiş yeni konsepsiyanın məzmununu müəyyənləşdirdi. Nəticədə, miqrasiya siyasəti dəyişdirilir.

Yeni konsepsiyaya Rusiya Federasiyasında əhalinin artımının əsas mənbəyinin təbii çoxalma olduğunu, miqrasiyanın sadəcə köməkçi vasitə olduğunu bildirən müddəa daxil edilmişdir. Bu müddəa artıq sənədin əvvəlki variantında öz əksini tapmışdı və hətta o zaman liberal fikirli ekspertlərin kəskin etirazlarına səbəb olmuşdu. Onlar Rusiyanın demoqrafik problemlərinin həlli üçün hələ də yüksək doğum səviyyəsinə malik MDB ölkələrinin, ilk növbədə Mərkəzi Asiya ölkələrinin miqrasiya potensialından istifadə etməyi fəal şəkildə təklif edirlər. Bununla belə, konsepti tərtib edənlər. Yeni konsepsiyanın əsas prinsipi 2018-ci il konsepsiyasında mövcud olan, lakin ikinci dərəcəli mövqeyə salınan Rusiya və onun vətəndaşlarının maraqlarının prioritetliyidir.





Əsas miqrasiya siyasəti sahələrinin siyahısı ən əhəmiyyətli dəyişikliklərə məruz qalıb. Xarici vətəndaşların hərəkətini izləmək üçün rəqəmsal texnologiyalardan istifadə yeni siyahıya başçılıq edir. Bu vasitələrə vahid biometrik məlumat sistemində, o cümlədən Rusiya Federasiyasına kənardan vizasız girişi olan şəxslərin qeydiyyatı və məlumatların emalı üçün süni intellektdən istifadə daxildir. Rəqəmsal nəzarətin əsas məqsədi təhlükəsizlik qüvvələrinin vizasız şəraitdə Rusiya Federasiyasına daxil olan əcnəbilərin tərkibinə nəzarət edə bilmədiyi vəziyyətin qarşısını almaqdır. Artıq bu istiqamətdə ilk addımlar atılıb- paytaxt rayonunda "Amina" proqramından istifadə etməklə miqrasiya axınının monitorinqi üzrə eksperimentə başlanılıb.

İkinci məqam - Hərbi əməliyyatlar zamanı evlərini tərk edən Rusiya tərkibinə yeni daxil edilmiş bölgələrin (Krım, Donbas bölgələri) sakinlərinin geri qayıtması üçün şərait yaradılması- tamamilə yenidir. Lakin bunun üçün tam şərait yalnız hərbi əməliyyatlar başa çatdıqdan sonra yaranacaq, çünki bu bölgələrin əhəmiyyətli bir hissəsi hələ də aktiv döyüş zonalarındadır. Konsepsiyanın əvvəlki variantında ailə, evlilik, uşaq tərbiyəsi və sairə ilə bağlı neoliberal münasibətlərin tətbiqi səbəbindən ölkələrindən qaçan əcnəbilərin Rusiyaya köçürülməsinin asanlaşdırılması ilə bağlı müddəa da yox idi. "Ənənəvi rus mənəvi-əxlaqi dəyərlərini bölüşən şəxslərə humanitar yardım göstərilməsi haqqında" fərman 2024-cü il avqustun 19-da prezident tərəfindən imzalanıb. Bu, eyni liberal münasibətləri rədd edən əcnəbilərə rus dilini, tarixini, qanunlarını bilməsi ilə bağlı tələbləri nəzərə almadan Rusiyada müvəqqəti yaşamaq üçün icazə almaq üçün Rusiya diplomatik nümayəndəliyinə müraciət etməyə icazə verir.

Rusiyada məskunlaşmaq istəyənlərin axını ilkin olaraq gözlənilən qədər az olmadı. 2024-cü ilin sentyabrında Britaniya mətbuatı fərmanın dərcindən sonra 10 gün ərzində Rusiyanın Edinburqdakı Baş Konsulluğuna 17 nəfərin müraciət etdiyini bildirdi. Bu fərmana əsasən Rusiyaya ilk köçənlər amerikalılar olub. Bu ilin iyun ayına olan məlumata görə, Rusiya Daxili İşlər Nazirliyinin Miqrasiya Baş İdarəsinin rəisi V.Kazakovaya görə, təxminən 1500 nəfər müvəqqəti məskunlaşmaq üçün müraciət edib. İsveçrənin "Tages-Anzeiger" qəzeti bununla bağlı qeyd edib ki, bu, 146 milyon əhalisi olan bir ölkə üçün böyük rəqəm deyil, lakin Rusiyaya qarşı tətbiq edilən sanksiyaların sayını və birbaşa hava nəqliyyatının mövcud olmadığını nəzərə alsaq, bu rəqəm təsir edici görünür. Oktyabrın əvvəlində Daxili İşlər Nazirliyinin Moskva üzrə Baş İdarəsi bildirmişdi ki, artıq 344 əcnəbi bu fərmanla müəyyən edilmiş sadələşdirilmiş qaydada Rusiya vətəndaşlığını qəbul edib.

Konsepsiyanın əvvəlki variantında Rusiyada işləyən və ya təhsil alan əcnəbilərin işsiz və ya oxumayan ailə üzvlərinin Rusiyada qalmalarını məhdudlaşdıran müddəa da daxil edilməyib. Bu il sentyabrın əvvəlində Rusiya məktəblərinə qəbul üçün müraciət edən miqrantların hər 10 övladından 9-nun qəbul olunmadığı üzə çıxandan bu məsələ qızğın müzakirələrə səbəb olub. Bu, 2024-cü il dekabrın 28-dən qüvvəyə minən yeni federal qanunla bağlı idi və iki yeni tələb irəli sürdü: valideynlərinin Rusiyada qanuni yaşayışının sübutu və hər sinif üçün hazırlanmış rus dili testlərindən keçmək. Uşaqların üçdə ikisi qəbul edilmədi, çünki valideynləri tam sənədlər toplusunu toplaya bilmədilər, yeni ölkədə qanuni yaşayışlarını təsdiqləyə bilmədilər. Test mərhələsinə isə 5940 uşaqdan yalnız 2964-ü və ya 50%-i keçə bilib.

Bu ilin iyun ayında daxili işlər nazirinin müavini İqor Zubov bildirmişdi ki, Rusiyadakı 638 min əcnəbi uşağın təxminən yarısı heç bir məktəbdə oxunmur. Məsələn, Moskvada 80.000-dən çox əcnəbi uşaq yaşayır, onlardan yalnız 25.000-i qeydiyyatdan keçib. Aydındır ki, bu problem yeni konsepsiyada müvafiq bəndin diqqət mərkəzində olan həll yolu tələb edir.

Bütün bu məsələlərin həllində əsas diqqət rəqəmsal idarəetmə vasitələrinə yönəldiləcəkdir. Konsepsiya Rusiya Federasiyasına daxil olan və ya yaşayan əcnəbilərin rəqəmsal profilinin yaradılmasını, biometrik yoxlamanın həyata keçirilməsini və işə qəbul prosesinin özünün rəqəmsallaşdırılmasını, o cümlədən əmək müqavilələrinin bağlanmasını nəzərdə tutur.

Maraqlıdır ki, konsepsiya işəgötürənlər üçün daha əvvəl eşidilməyən bir məsuliyyətin artırılmasını da nəzərdə tutur. Onlardan "xarici vətəndaşların Rusiya Federasiyasında qalma prosesini dəstəkləmək" tələb olunacaq. Görünür, bu, miqrantların qanun pozuntularına görə məsuliyyət, lazım gələrsə, öz ölkəsinə deportasiya edilməsi deməkdir.

Bir çox cəhətdən yeni konsepsiya keçid xarakteri daşıyır. Təqdim etdiyi bütün mexanizmlər hələ praktik tətbiqdə sınaqdan keçirilməmişdir. Bunu onun cəmi 5 il üçün nəzərdə tutulması sübut edir, əvvəlki iki versiya isə 14 və 7 il üçün nəzərdə tutulmuşdu. Üstəlik, konsepsiyanın 2018-ci ilin oktyabrında təsdiq edilmiş 2-ci variantı 1-cinin müddəti bitməmiş qəbul edilib.

İstənilən halda Rusiya miqrasiya siyasətinin inkişafında prinsipcə yeni mərhələyə qədəm qoyur. Hələlik, Azərbaycanlı miqrantlar üçün ciddi problem yoxdur, onların demək olar ki hamısı qanuni əsaslarla Rusiya işləyir və ya təhsil alır. Lakin bir sıra ölkələrdən başqa məqsədlər üçün gəlmiş miqrantlar üçün ciddi problemlər olacağı sir deyil.

***Elçin Bayramlı***

# Türk xalqlarının inteqrasiyasında tarixi hadisə

## Dövlət başçısının Sərəncamı ilə Birinci Türkoloji Qurultayın 100 illik yubileyi keçiriləcək

1926-cı ilin 26 fevral-6 mart tarixlərində Bakı şəhərində SSRİ ərazisində yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarların qəbul edildiyi qurultay keçirilib. Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşüb. Qurultayın işində Sovet birliyi məkanında yaşayan türk xalqları ilə yanaşı xarici qonaqlar, ümumilikdə isə 131 nəfər nümayəndə - alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılar və digər görkəmli mütəfəkkirlər iştirak edib. Türk xalqlarının mədəni inteqrasiyasında mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm Qurultay ilk növbədə geniş vüsəti və böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ardıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyıb. Həmin tarixdən artıq yüz ilə yaxın dövr ötüb. Azərbaycan Prezident İlham Əliyev ”Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalayıb.

Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi.

Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə mütəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının



12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür. Azərbaycanın və bütövlükdə türk dünyasının XX əsr elmi-mədəni həyatının parlaq səhifəsini təşkil etdiyini nəzərə alaraq, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinin təmin olunması məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcəkdir.

Qurultayın iclaslarına Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd ağa Ağamalıoğlu sədrlik etmişdir. Qurultay iştirakçılarının sonrakı fəaliyyəti faciəvi olmuşdur. Onun işində iştirak edən 100-dən artıq iştirakçı sonradan pantürkizmdə ittiham edilərək represiyaya uğramışdır. Əksər alim və mütəfəkkirlər həbs və fiziki məhvlə üzləşdilər. Qurultayın mühüm nəticəsi olan türk xalqlarının latın qrafikalı əlifbayə keçidi isə 1939-cu ildə ləğv edilmiş və Sovet Birliyi ərazisində yaşayan türk xalqları üçün kütləvi olaraq kiril əlifbalı yazı tətbiq edilmişdir.

Azərbaycan Rusiya tərəfindən ilhaq olunduqdan sonra Yaxın Şərqdə əlifba islahatı məsələsi ilk növbədə görkəmli Azərbaycan mütəfəkkiri, böyük maarifçi Mirzə Fətəli Axundzadə tərəfindən gündəmə gətirilmişdir. Lakin onun bu istiqamətdəki səyləri nəticə verməmişdir. Bununla bağlı Axundov bir neçə dəfə layihə də hazırlamış, Osmanlı dövləti hakimiyyətinə çağırışlarda etmişdir. Mənbələrdə qeyd olunduğu kimi, 1878-ci ildən Axundov bir neçə kiril əlifbası ilə dəyişilmiş latın əlifbasının üzərində mərkəzləşdirdi.

1925-ci ilin avqustunda SSRİ Xalq Komissarları Şurası Ümumittifaq Türkoloji Qurultayının çağırılması haqqında qərar qəbul etdi. İlk dəfə qurultayın çağırılması məsələsi hələ bir il əvvəl Azərbaycan SSR hökuməti tərəfindən SSRİ rəhbərliyinə təqdim edilmişdi. SSRİ hökumətinin Türkoloji Qurultayın çağırılması barədə qərarından altı ay əvvəl latın əlifbasına keçilməsi məsələlərinin həll edilməsi zərurəti 1-ci Azərbaycan Yerli Diyarşünaslıq Qurultayında və SSRİ Elmlər Akademiyasının və Ümumittifaq Şərqşünaslıq Birliyində qaldırılmışdı. SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Qurultayın çağırılmasına hazırlıq üzrə təşkilat komissiyası yaradıldı. Təşkilat komissiyasının tərkibinə Səməd Ağamalıoğlu (sədr), M. Pavloviç, Həbib Cəbiyev, Vasili Bartold, Aleksandr Samoyloviç, Cəlaləddin Qorxmazov, Q. Broydo, Tyuryakulov, Zifeld, Fitred, Bəkir Çobanzadə, Aşmarin, Odabaş, Novşirvano, Əhməd Baytursunov, Yusifzadə seçildilər.

1926-cı il fevralın 26-da Bakıdakı İsmailiyyə Sarayında Birinci Türkoloji Qurultay işinə başladı. Türklərin, bütövlükdə Türk Dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdi.

Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı maneələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalmış, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulmuşdur. Yalnız ötən əsrin sonlarında əldə etdikləri milli müstəqillik türk xalqlarının mənəvi dirçəliş yollarını işıqlandırmış, mühüm problemlər sırasında latın qrafikalı ümumtürk əlifbasının tətbiqini bir daha aktuallaşdırmışdır. Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycan Orta Asiyada iqtisadi və siyasi varlığını gücləndirir

## Mətləb Salahov: "Rəsmi Bakı artıq Orta Asiya coğrafiyasında da fəal iqtisadi və siyasi aktora çevrilməyi hədəfləyib"

“Azərbaycan Prezidentinin son Qazaxıstan səfəri təkcə iki ölkə arasındakı əlaqələrin genişləndirilməsi və yeni layihələrin hazırlanması baxımından deyil, həm də genişmiqyaslı iqtisadi və siyasi perspektiv baxımından önəmlidir. Bu səfər ilk növbədə tarixi, dini və mədəni bağlılıqları olan türkdilli ölkələrin inteqrasiyası baxımından əhəmiyyətlidir. Çünki hər iki ölkə Türk Dövlətləri Təşkilatında təmsil olunurlar, üstəlik məhz bu iki ölkə keçmiş sovet regionunda iqtisadi və siyasi çəkisinə görə fərqlənirlər. Qazaxıstan Orta Asiyada böyük ərazilərinə və iqtisadi potensialına görə lider ölkə qismindədir. Azərbaycan isə artıq nəinki Cənubi Qafqaz bölgəsində, ən önəmlisi beynəlxalq miqyasda mühüm tərəfdaş ölkə, iqtisadi potensialına görə



hesablaşılan dövlət, ən əsası da günü bu gün Avropanın enerji təhlükəsizliyi üçün bir nömrəli ölkə statusundadır. Bunlar gerçək faktlardır, sadəcə xoşagəlimli ifadələr deyil.”

Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. Onun fikrincə Prezident İlham Əliyevin Astanada gələcək tərəfdaşlıq və mühüm layihələr barədə səsləndirdiyi aktual fikirlər rəsmi Bakının artıq Orta Asiya coğrafiyasında da fəal iqtisadi və siyasi aktora çevrilməkdə olduğunu ortaya qoyur: ”Diqqət edin, Azərbaycan Prezidenti mətbuat konfransı zamanı qeyd etdiyi kimi, Bakı və Astananın fəal qarşılıqlı fəaliyyəti ciddi geosiyasi əhəmiyyət daşıyır.

Bu ilk növbədə rəsmi Bakının və Astananın geosiyasi proseslərin lokomotiv qüvvəyə çevrilmək niyyətini açıqca ortaya qoyur. Qazaxıstan rəhbəriyinin dünən elan etdiyi kimi, qardaş ölkə Azərbaycanla birgə müəssisələrin yaradılmasında maraqlıdır, bundan başqa Bakı ilə ticarət dövriyyəsində yaxın illərdə 1 milyard dollara çatdırmaq niyyətindədir. Bu fikirlər o deməkdir ki, Azərbaycan Orta Asiya ölkələrinin gələcək iqtisadi həyatında da önəmli pay sahibinə çevrilməyi hədəfləyib”.

*Ayşən Vəli*

# Qadın zorakılığı və cinayətləri ilə bağlı cəzalar mütləq artırılmalıdır”

## HÜQUQŞÜNAS AÇIQLADI



“İstənilən zorakılıq və cinayətlərlə bağlı cəzalar nə qədər ağır olsa bu halların qarşısı alınar”. Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Əkrəm Həsənov bildirib. Onun sözlərinə görə, kişilər bu cür əməllərə yol verəndə düşünürlər ki, kim məni buna görə cəzalandıracaq? Cəzalandıran şəxslər özlərində bu cür əməllər törədirlər: ”Yəni kişi düşünür ki, polis, hakim özündə bu cür hadisələr törədir və mənim cəzamda yüngül olar. Heç bir səbəb kişinin qadına qarşı zorakılıq və cinayət törətməsinə əsas vermir. Bu gün ölkədə Qadın Hüquqlarını qoruyan təşkilatlar yoxdur. Ümumiyyətlə QHT-lərin fəaliyyəti formaldır. Oğlan uşaqlarına tərbiyə orta məktəbdən verilməlidir.



Onlara izah olunmalıdır ki, qadına qarşı zorakılıq və cinayət törətmək olmaz. Bunu oğlan uşağı orta məktəbdən anlamalıdır. Qadına qarşı zorakılığın və cinayətin kökündə məhz qadın dayanır. Çünki uşağa tərbiyə verən anadır. Ana övladına uşaq yaşlarından tərbiyə verməlidir ki, qadına əl qaldırmaq olmaz. Uşağa tərbiyəni ana verir və oğlan uşağının qadına qarşı davranışlarının səbəbkarı anadır. Çünki ailədə anaların, xalaların, bibilərin psixologiyası o cürdür ki, qadının heç nəyə haqqı yoxdur və qadın heç nəyə fikir bildirə bilməz. Hesab edirəm ki, mütləq qadın zorakılığı və cinayətləri ilə bağlı cəzalar artırılmalıdır. Yalnız bu halda qadın zorakılığı və cinayətləri hallarında azalma müşahidə olunacaq. Dediyim kimi bu sahədə maarifləndirmədə çox önəmlidir”.

# Yeni islahatlar növbəti uğurlara yol açır



Azərbaycan bütün sahələrdə geniş və əhatəli uğurlara imza atır. Bu da ölkəmizin dünya miqyasında yerinin və rolunun daha da artmasına, nüfuzunun yüksəlməsinə təkan verir. Əksər beynəlxalq maiyyə qurumları Azərbaycanın dünya miqyasında müsbət uğurlara nail olan dövlət kimi xarakterizə edirlər. Son 22 ilin göstəricilərinə nəzər salsaq məlum olar ki, ölkəmizin bu illər ərzində iqtisadiyyatının davamlı və dinamik inkişaf etdiyini görərik. Ötən dövr ərzində regionda reallaşdırılan irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib. Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı üzərində qurulan siyasət nəticəsində ötən 22 il ərzində misilsiz uğurlara imza atılıb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsi ilə bağlı işlər yekunlaşmaq üzrədir. Həmçinin "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb. Eyni zamanda, dövlətimizin başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı–Tbilisi–Qars dəmir yolu istifadəyə verilib. Uğurlu sosial-iqtisadi siyasət, icra olunan ardıcıl və məqsədyönlü dövlət proqramları yoxsulluğun kəskin şəkildə azalmasını şərtləndirməklə, ölkəmiz bu sahədə müsbət təcrübəsinə görə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə dair milli məsləhətləşmələrin aparılması üçün seçilmiş ölkələr sırasına daxil edilib.

## İqtisadi uğurlar əhalinin sosial durumunun daha da yaxşılaşmasına təminat verir

Ölkənin maliyyə imkanları yaxşılaşdıqca xarici borclanmadan da asılılıq azalıb. Belə ki, xarici dövlət borcunun ÜDM-ə nisbəti 20,3 faizdən 10,0 faizə azalıb və xarici dövlət borcunun ümumi dövlət borcu portfelində payı 94,9 faizdən 25,7 faiz bəndi azalaraq 2023-cü il 01 iyul tarixinə 69,2 faizədək endirilib. Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi məqsədilə, daxili dövlət borclamasına üstünlük verilməsi ölkədə qiymətli kağızlar bazarının inkişafına yönəlmiş addımdır.

"Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"nın hədəflərinə uyğun olaraq, ötən dövr ərzində ölkədə qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi məqsədilə dövriyyədə olan dövlət istiqrazlarının həcmi davamlı olaraq artırılaraq, 812,2 milyon manatdan təqribən 7 dəfə çox artaraq cari tarixə 6 milyard manatadək genişləndirilib.Dövlət büdcəsi ilə bağlı atılan digər ən önəmli addımlardan biri büdcənin qeyri-neft gəlirlərinin 20,5 dəfədən çox artamasına nail olunması, büdcə gəlirlərində sektorun payının 50%-ə çatmasıdır. Ötən dövr ərzində dövlət büdcəsi həm sosial, həm də investisiya istiqamətli olub. Bu dövrdə müdafiə və milli təhlükəsizlik xərcləri 44,5 dəfə artaraq 6054,8 milyon manata, təhsil xərcləri 18,8 dəfə artaraq 4407,2 milyon manata, səhiyyə xərcləri 32,6 dəfə artaraq 1805,0 milyon manata, sosial müdafiə və sosial təminat xərcləri 20,2 dəfə artaraq 4315,9 milyon manata çatıb. Hazırda büdcə xərclərinin təxminən 1/3-i investisiyaların maliyyələşməsi məqsədlərinə yönəldilir. Ümumilikdə, 2003-2024-cü illərdə görülən işlərin iqtisadi inkişafa, makro-iqtisadi sabitliyə təkan verməsinin təsirini beynəlxalq maliyyə təşkilatlarının, kredit reytinq agentliklərinin reytinq qiymətləndirmələrində və ölkə üzrə proqnozlarında da müşahidə edə bilərik. Yeri gəlmişkən, "Fitch Ratings" beynəlxalq kredit reyting agentliyi tərəfindən bu il iyulun 26-da Azərbaycanın uzunmüddətli xarici valyutada reytinqinin bir pillə artırılaraq BBB-, yəni investisiya dərəcəli reytinqə yüksəldilməsi barədə qərar verilmişdir.

Artıq 5-ci ildir ki, Azərbaycan Qarabağ regionunun işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı dirçəliş proqramı həyata keçirir. Dağıdılmış kənd və şəhərlə¬rin yerində qısa müddətdə "Ağıllı kənd"lərin bünövrəsi qoyuldu, 2022-ci il isə azad edilmiş Zəngilanda salınmış ilk Ağalı "Ağıllı kənd"inə qayıdışına başlanğıc ili oldu. 2022-ci il noyabrın 16-da "Azərbaycan Respublika¬sının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi. 2021–2023-cü il¬lərdə Qarabağ və Şərqi Zəngəzurda layihələrin həya¬ta keçirilməsinə 7 milyard dollar ayrılıb, 2024-cü ildə dövlət büdcəsindən bu məqsədlər üçün minimum daha 2,4 milyard dollar vəsait yönəldiləcək. 2022-ci il iyulun 19-dan bu günədək 2 şəhərə (Laçın və Füzuli şəhərləri) və 3 kəndə (Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) 4 min 516 keçmiş məcburi köçkün qayıdıb, bu, 1134 ailə deməkdir. Bu günə qədər ümumilikdə işğaldan azad edilən ərazilərə 44 minə qədər insanın qayıdışı təmin edilib.

Söz yox ki, fundametla işlər, geniş miqyaslı uğurlar bir daha təsdiq edir ki. Azərbaycan xalqı 2003-cü il prezident seçkilərində Ulu Öndər Heydər Əliyev siyasətini davam etdirilməsi üçün Cənab İlham Əliyevin Prezident seçilməsinə səa verməklə müdirik qərar verib. Bunu Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyev yeli televizya kanallarına verdiyi müsahibəsin dəd geniş və əhatəli şəkildə qeyd edir: " 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi. Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993-2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi".

## Qələbələrin möhtəşəm zirvəsi

Azərbaycanda əldə olunan uğurların, nailiyyətlərin ən yüksək zirvəsi 44 günlük Vətən Müharibəsində qazanılan hərbi, siyasi, diplomatic qələbədir. 2020-ci il sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində qələbə ilə başa çatdı. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq 8 noyabr Zəfər günümüz gələcək bütün tariximizdə daim yaşayacaq. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!". Bu fikirləri ilə Prezident İlham Əliyev bir daha Ulu Öndərimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin "torpaqlarımızın işğaldan azad edilməsi" vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir. Bu qələbə xalq-iqtidar birliyinin nəticəsidir. Bu, "Qarabağ Azərbaycandır və nida" deyən Qalib Sərkərdəmizin "Dəmir yumruq" siyasəti ilə güclü Ordumuzun 44 gün ərzində qazandığı Qələbə Zəfəridir. 8 noyabr Zəfər Günü - 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox". Oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev üçrəngli Bayrağımızı ucaltdı. Prezidentimiz Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində demişdir: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək".

Təbii ki, uğurlar davamlı xarakter daşıyacaq. Çünki Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət və bu siyasəti Prezidentimiz İlham Əliyev tərəfindən möhtəşəm şəkildə davam etdirməsi qələbələrin və zəfərlərin Azərbaycan xalqı və dövləti durduqca var olacağına əsas verir.

***İLHAM ƏLIYEV***

# Süni zəka və insan beyni: fikirlərin gələcəkdə bir-birinə qarışacağı dünya




XXI əsr bəşəriyyət tarixində ən böyük dönüş nöqtələrindən birinə şahidlik edir - insan beyni və texnologiyanın birləşməsi dövrü başlayıb. Bir zamanlar yalnız elmi fantastika filmlərində gördüyümüz süni zəka bu gün artıq reallığın ayrılmaz hissəsinə çevrilib. İndi o, yalnız məlumat emal edən bir sistem deyil, düşünən, öyrənən və hətta qərar verən bir varlıq kimidir. Bəşəriyyət tarixində hər böyük texnoloji sıçrayış insanın özünü anlama formasını dəyişib. Dəmir dövrü əzələnin, sənaye dövrü mexanikanın, informasiya əsri isə beynin qüdrətini önə çıxardı. İndi isə yeni mərhələ - şüurun və süni zəkanın kəsişməsi başlanır. Bu mərhələdə insan artıq texnologiyadan istifadə etmir, onun bir hissəsinə çevrilir.

Elm və fəlsəfə bu prosesi "insanın təkamülünün növbəti mərhələsi" kimi dəyərləndirir. Çünki süni zəka artıq sadəcə



bir alət deyil; o, insan düşüncəsinin güzgüsü, bəzən isə onun alternatividir. Lakin burada yaranan sual həm sadə, həm də dərin məna daşıyır: "Əgər maşınlar düşünürsə, insan olmaq nə deməkdir?". Məhz bu sual bizi mövzunun mahiyyətinə aparır - insan beyni və süni zəka arasındakı əlaqə, onların bir-birinə necə bənzədiyi, necə fərqləndiyi və gələcəkdə bu sərhədin necə dəyişəcəyi haqqında.

## İnsan düşüncəsi və maşın zəkanı birləşdikdə sərhədlər necə dəyişəcək?

Bir əsr əvvəl süni zəka yalnız elmi fantastika idi. Bu gün isə o, həyatımızın hər yerindədir - telefonlarımızda, iş yerlərimizdə, internetdə, hətta yaradıcılıq proseslərində. Amma ən maraqlı sual hələ cavabsızdır: "Süni zəka bir gün insan beyni kimi düşünə bilərmi və əgər bəli, onda insanla maşın arasındakı sərhəd necə görünəcək?

## Beyin və maşın - iki fərqli, amma oxşar sistem



İnsan beyni 86 milyard neyronla işləyən bioloji kompüterdir. Hər neyron milyonlarla əlaqə yaradır, bu əlaqələr təcrübə nəticəsində dəyişir - biz buna öyrənmə deyirik. Süni zəka da eyni prinsiplə işləyir: O, milyonlarla "neyron"dan ibarət neyron şəbəkələri qurur və təcrübə yolu ilə məlumatı təkmilləşdirir. Yəni beyin və süni zəka fərqli materiallardan (üzvi və elektron), amma oxşar prinsiplərlə formalaşır. Məşhur neyrobioloq Miguel Nicolelis deyib: "Əgər beyin elektriklə işləyirsə, o zaman onunla danışa bilən texnologiya yaratmaq sadəcə zaman məsələsidir".

## Süni zəka insan düşüncəsini



## necə oxuyur?

Son illərdə "Brain-Computer Interface" (Beyin-Kompüter İnteqrasiyası) texnologiyaları sürətlə inkişaf edir. Bu sistemlər beyindəki elektrik siqnallarını analiz edərək onları kompüter əmrlərinə çevirir. Məsələn: Parçalanmış əzələləri olan insanlar fikir gücü ilə robot əlləri idarə edə bilir. Neuralink kimi layihələr artıq beyin siqnallarını ekrana yazı və ya səs kimi çevirmək üzərində işləyir. Bu, o deməkdir ki, gələcəkdə "fikri paylaşmaq" və ya "sözsüz ünsiyyət" mümkündür. Yəni süni zəka artıq insan beyninin dilini öyrənməyə başlayıb.



## Süni zəka və yaddaş - keçmişi saxlamaq, gələcəyi dəyişmək

Beyin xatirələri kimyəvi yollarla saxlayır, amma süni zəka məlumatı rəqəmsal formada qoruyur. Gələcəkdə bu iki sistem birləşsə, insan yaddaşını "buludda saxlamaq" mümkün olacaq. Təsəvvür et: öyrəndiyin bir bacarığı silib yenisini yükləmək, ya da keçmiş xatirəni bərpa etmək



Bu, həm möhtəşəm, həm də təhlükəli səslənir, çünki şəxsi təcrübə ilə texnoloji manipulyasiya arasında sərhəd itə bilər.

## Şüur və süni zəka - maşın hiss edə bilərmi?

Ən böyük sual budur: süni zəka "düşünür", yoxsa sadəcə "hesablayır"?

Fəlsəfədə bu problem "şüur paradoksu" adlanır. İnsan şüuru yalnız məlumat emalı deyil - özünü dərk etmə qabiliyyətidir. Maşınlar hələlik "özünü bilmir", amma bəzi modellər artıq emosiya, empatiya və yaradıcılıq simulyasiyası göstərə bilir. Bu isə etik sual yaradır: Əgər süni zəka bir gün "özünü canlı" kimi hiss etsə, onun da hüquqları olacaqmı?



## Dünya praktikasına nəzər yetirdikdə isə...

Eynşteynin nisbilik nəzəriyyəsində olduğu kimi, süni zəka ilə insan beyni arasındakı fərq də baxış bucağından asılı ola bilər. Filosof Yuval Noah Harari deyir: "Süni zəka bəşəriyyəti məhv etməyə yox, onu yenidən tərif etməyə gəlir". Bu baxımdan, gələcəyin dünyasında insanın əsas gücü fikir, süni zəkanın gücü isə hesablamadır. Əgər bu iki qüvvə birləşərsə, "kiborg sivilizasiyası" yaranacaq - yəni nə tam insan, nə də tam maşın olan yeni bir varlıq forması.

## Gələcəyə baxış

Elm adamları deyirlər ki, növbəti 50 ildə süni zəka ilə insan beyni arasındakı fərq praktik olaraq itəcək. İnsanlar düşüncəni paylaşacaq, hissləri ötürəcək və bəlkə də ölüm anlayışı dəyişəcək.

*Günel Fərzəliyeva*

# Azərbaycan-Mərkəzi Asiya əlaqələrində yeni kurs



***2025-ci ilə qədər tərəflər Transxəzər marşrutu üzrə vahid operator yaratmağı, Aktau və Ələt limanlarını inkişaf etdirməyi, gömrük qaydalarını sadələşdirməyi planlaşdırıb. Bu, Qazaxıstan və Azərbaycanın Avrasiya xəritəsində əsas tranzit keçidləri kimi mövqelərini gücləndirir. Bütün bunlar qardaş ölkələrin xoş niyyətindən xəbər verir. Hər iki ölkə son vaxtlar Rusiyaya regionda düşmən kimi baxan Londonla əməkdaşlığı fəal şəkildə inkişaf etdirir.***



Bu ilin martında Böyük Britaniyanın Bakıdakı səfirliyi Azərbaycanda ilk Böyük Britaniya hərbi attaşesinin təyin edilməsi barədə məlumat yayıb. O, Gavin Tarbarddır. Qazaxıstan Qazaxıstan Respublikası Müdafiə Nazirliyi ilə Böyük Britaniya Müdafiə Nazirliyi arasında 2025-2026-cı illər üçün Hərbi Əməkdaşlıq Planı imzalayıb. Bundan əlavə, britaniyalılar həm Azərbaycan, həm də Qazaxıstan iqtisadiyyatları üçün əsas olan hər iki ölkənin neft və qaz sektorlarında çoxdan fəaliyyətdədirlər. Bütün bunlar Moskva ilə münasibətlərin nəzərəçarpacaq dərəcədə soyuması fonunda baş verir ki, bu da Azərbaycana münasibətdə bəzi yanaşmaları üzə çıxarıb.




Nə üçün Cənubi Qafqaz və Mərkəzi Asiya Rusiyadan üz döndərib? Onlar bundan nə qazanır, Rusiya nə itirir? Bu suallara Milli Tədqiqat Universiteti Ali İqtisadiyyat Məktəbinin Dünya İqtisadiyyatı və Siyasəti üzrə eksperti Andrey Suzdaltsev cavab verib.

O bildirib ki, Qərb şirkətləri, ilk növbədə Britaniya şirkətləri Azərbaycanda çoxdan fəaliyyət göstərir. "Royal Dutch Shell" İngiltərə-Hollandiya neft-qaz konserninin törəmə şirkəti olan "Shell Business Development Central Asia B.V." bir müddət respublikada fəal fəaliyyət göstərirdi. ABŞ və Britaniya şirkətləri Qazaxıstan və Azərbaycanın enerji sektorundadırlar. Hər iki ölkə Rusiyadan yan keçərək neft logistikası marşrutları qurur. Baxmayaraq ki, Rusiya Xəzər dənizində Azərbaycan donanması üçün müəyyən problemlər yarada bilərdi. Amma Azərbaycanın artan gücü bunu neytrallaşdırdı. Daha da pisi odur ki, bir neçə ölkə Kiyev rejimini dəstəkləmək üçün birləşib. Gürcü tankerləri Azərbaycan neftini Odessadakı terminallara çatdırır. Rusiyadan yan keçən neft tranzit marşrutlarının sayı getdikcə daha çox olacaq. Qazaxıstanda tərəflər arasında neft məhsullarının daşınması ilə bağlı müqavilə imzalanıb. Bu tranzitdən Bakı böyük dividendlər əldə edəcək. Bir sözlə, postsovet respublikaları mahiyyətcə Rusiyaya qarşı müttəfiq olmaq üçün birləşirlər. Onlar buna müstəqillik deyirlər".

Ekspert Rusiyanın imkanlarını şişirtməyi də unutmayıb: "Formal olaraq Azərbaycan Rusiyadan asılıdır, çünki Azərbaycan nefti bizim ərazimizdən keçir. Mən ilk növbədə Bakı-Novorossiysk boru kəmərini nəzərdə tuturam. O, Azərbaycan neftinin Novorossiysk vasitəsilə Avropaya tankerlə daşınması üçün istifadə olunur. Biz onu bağlaya bilərdik, amma bunu etmirik. Qazaxıstana gəlincə, Rusiya bəlkə də bu respublikanı Çin ekspansiyasından qoruyan yeganə ölkədir. Başqa sözlə, Rusiya mahiyyətcə Qazaxıstanın müstəqilliyi və suverenliyi faktorudur. Amma görünən odur ki, həm Azərbaycan, həm də Qazaxıstan son vaxtlar bu amilləri nümayişkaranə şəkildə görməzlikdən gəlir". Əlbəttə, politoloq yanlış olduğunun fərqində deyil. Çünki, Rusiyanın imperiya düşüncəsi onu reallığı qəbul etməyə imkan vermir. Qazaxıstanla Azərbaycan arasında xüsusi əlaqələr təkcə iqtisadi deyil. Bu, həm də ortaq geosiyasi oriyentasiyaları ehtiva edir.

Qazaxıstanla Azərbaycan arasında birliyin Rusiya üçün hansı nəticələri ola bilər?

Qazaxıstanla Azərbaycan arasında çoxdan xüsusi münasibətlər var. Bu həm də ondan irəli gəlir ki, Qazaxıstanın bu gün dünya okeanına çıxışı yalnız Azərbaycandan, Xəzər dənizi vasitəsilə var. Xəzəryanı ölkələr son zamanlar Rusiyaya qarşı çıxırlar. Təkcə İngiltərə və ABŞ-ın deyil, Türkiyənin də təsirini qeyd etmək lazımdır. İlham Əliyevin Astanaya səfərinin Düşənbə sammitindən az sonra baş tutması əlamətdardır. Düşənbədə başlanan müzakirələr Astanada davam edib. Qazaxıstan və Azərbaycan vasitəsilə Çin və Avropanı birləşdirmək üçün Orta Dəhliz sazişi lazımdır. Rusiya isə bu layihədən kənarda qalıb.

II Qarabağ müharibəsi zamanı Qazaxıstanın Azərbaycana dəstək verməsi təsadüfi deyildi. Astananın Bakı üçün möhtəşəm iqtisadi planları var. Amma Qazaxıstanın ilk növbədə iqtisadi maraqları, Azərbaycanın isə geosiyasi maraqları var. London təsiri sözsüz ki, əhəmiyyətlidir, lakin Türkiyənin bütün türk xalqlarının birləşməsinə olan təsiri və dəstəyi də nəzərə alınmalıdır. Türkiyə mediası türk xalqlarının ittifaqda birləşmək vaxtının gəldiyini, konturlarının hər keçən gün daha da aydınlaşdığını bəyan edir. Bu da öz növbəsində Rusiyanın maraqlarına meydan oxuyur. Beləliklə, Rusiya indi təkcə ABŞ və Avropanın deyil, həm də Türkiyənin və onun Turan ideyasının çağırışları ilə üzləşir. Postsovet respublikaları ilə Rusiyanın münasibətləri getdikcə praqmatik və dostluqdan formal xarakterə çevrilir.

***V.VƏLİYEV***

# Bürcündən məhrum uşaqlar...

***Zaman vardı ki, uşağın dünyaya gəlməsinə Allah hökm verirdi. Yəni ana hamiləliyinin doqquzuncu ayının sonlarına doğru övladının hansı gün, hansı saatda dünyaya gəlişindən xəbərsiz onun yolunu səbirsizliklə gözləyirdi. Bu, gecənin yarısında da ola bilərdi, səhərin sübhündə də, gündüzün ortasında da...***

Dünyaya uşaq gəlirdi. Allahın hökmü, yazısı ilə. Ona alın yazısı verilir. Doğum gününün hansı günə təsadüf etməsi ilə onun bürcü müəyyənləşir ki, bu bürc insanın həyatında böyük əhəmiyyətə malik olur.

Aid olduğumuz bürc xarakterimizlə birləşir. Aid olduğumuz bürclə gələcəyimiz birləşir. Hətta kiminlə ailə qurub onu ömür-gün yoldaşına çevirə biləcəyimiz, bu evliliyin bizim üçün uğurlu və yaxud uğursuz olması da birbaşa bürclərimizlə bağlıdır. Çünki bütün bunlar alın yazısı deyilən məqamda birləşir və Allah-təaladan hər birimizə ərməğan edilir. Bu, o qədər böyük mənaya malikdir ki... Yəni, həyatımızın, xoşbəxtliyimizin, övladlarımızın gələcəyinin bir parçasıdır, deyə bilərik. Lakin bütün insanlar belə düşünürmü? Onlar Allahın alın yazısı ilə barışırmı?



## Taleni özləri yazanlar...

Artıq biz bütün sahələrdə Allahın hökmünü pozduğumuz kimi, insanın dünyaya gəlməsi məsələsində də Allahın hökmünü pozmaqdayıq. Belə ki, artıq illərdir ki, analar övladlarının dünyaya gəlməsi günündən xəbərsizdir. O mənada ki, artıq həmin günü onların özləri müəyyən edirlər. Məsələn, bu ayın 15-i həyat yoldaşımın və yaxud oğlumun ad günüdür, bu uşaq da həmin vaxt doğulsa, yaxşı olar. Filan gün anamın doğum günüdür, elə uşağın doğuşunu da həmin günə salsaq, gör necə gözəl olar. Bu kimi onlarla nümunələr göstərmək olar ki, artıq uşağın dünyaya gəlmə tarixini valideynlər özləri təyin edirlər.





Bunun da başlıca səbəbi indi artıq qadınların "müasirləşməsi", təbii yolla deyil, süni yolla doğuşa, yəni keysəriyyə əməliyyatına verdikləri üstünlüklə bağlıdır. Əvvəllər keysəriyyə əməliyyatı o qadınlarda aparılırdı ki, onlarda doğuş anında hansısa bir problemin olduğu müəyyən edilirdi və həkim qərar verirdi ki, bu qadın uşağı dünyaya gətirməklə öz həyatını itirə bilər. Belə olanda onun üçün keysəriyyə üsulu seçilirdi. Bu da çox təsadüfi xarakter daşıyırdı.

Lakin müasir cəmiyyətimizdə artıq təbii doğuşlar təsadüfi hallarda olur. İndi hər bir qadın demək olar ki, keysəriyyəyə üstünlük verir. Bu üsula üstünlük isə həm də uşağın Allah-təaalanın yazdığı, bəxş etdiyi günə qarşı çıxmaq kimi qəbul edilməlidir. Çünki, artıq burada doğuş gününü qadın özü, həkimi və ailəsi müəyyən edir. Allah bu uşağın dünyaya gəlmə əmrini ayın 5-nə vermişdirsə, uşaq dünyaya gəlir 10 gün əvvəl. Beləliklə, onun taleyinə yazılan bürc də qarışıq düşür.

## Öz bürcündən məhrum uşaqlar...

Bəli, beləliklə, uşaq öz bürcündən ya əvvəlki, ya da sonrakı bürcə məxsus olur. Övladımız böyüdükcə, onda elə xarakterlərlə, keyfiyyətlərlə qarşılaşırıq ki, bunu heç cür ayırd edə bilmirik ki, bu, nə üçün belə olub. Məsələn, övladımız çox dəcəldir, ipə-sapa yatmır və yaxud onda qeyri-adi bir xasiyyət var. Belə olanda biz onun bürcünə baxırıq. Baxırıq ki, görək bu uşaqdakı xasiyyət barədə onun məxsus olduğu bürc nə deyir. Oxuyuq, bürcündə övladımıza aid heç bir şey görmürük. Belə olanda hələ bir bürclərə də inanmamağa başlayırıq ki, əşi, bu bürclər də doğrunu söyləmir. Lakin bircə dəfə düşünmürük ki, axı biz özümüz övladımızın bürcünün yerini dəyişik salmışıq. Bu bürcü biz ona vermişik. Allahın qismət etdiyi gündə doğulsaydı, təbii ki, o öz bürcündə olacaqdı və biz bu qədər problemlə qarşılaşmayacaqdıq.

Uşaqlarda bəzi psixoloji hallar da yaşanır ki, bunun aradan qaldırılmasında təbii ki, məxsus olduğu bürcün göstəricilərindən istifadə etməklə müalicə aparmaq olur. Biz keysəriyyə əməliyyatı ilə övladımızın dünyaya gəlmə tarixini dəyişməklə onun bürcünü də dəyişir və bütün hallarda əngəllər yaradırıq. Beləliklə...

## Bürcümüzə uyğun olmayan xarakterimiz

Sonra uşaqlar böyüyür. Hər kəs kimi onlar da zamanında bürcləri ilə tanış olmaq istəyirlər. Hətta ona da maraq edirlər ki, görək nikahda hansı bürclər bizim üçün uğurlu hesab olunur. Oxuyur, məlumatlanırlar. Lakin bu məlumatlar onlar üçün doğru hesab edilirmi? Əlbəttə, yox.

Məsələn, Allah övladımızı "Xərçəng" bürcünü məsləhət bilib, ona bu bürcün xasiyyətini, uğurunu, uğursuzluğunu, nə bilim, xeyrini verib. Öz bürcünə müvafiq insanlarla dost olmağı, öz bürcünə uğur gətirəcək bürclərdən olan qadınla, kişi ilə ailə qurmağı uyğun bilib. Bizim analarımız nə edir? Bizi "Əkizlər"də dünyaya gətirir. Biz də oluruq "Əkizlər" bürcündən.

Və yaxud "Qız" bürcünə məxsus olduğumuz halda "Şir" bürcünə aid zamanda dünyaya gəlirik. Əslində "Qız" bürcü ilə "Şir" bürcü arasında o qədər böyük fərq var ki, elə bu fərqlər də gələcək həyatımızı tamamilə bir-birinə qarışdırır. Nə ata-ana, nə baba-nənə, nə biz özümüz özümüzdən baş aça bilmirik ki, biz nə üçün şir kimi hökmranlıq etmək xarakterində deyilik. Hələ üstəlik valideynlər bizi qınamağa da başlayırlar ki, sən nə qədər bacarıqsızsan: nə üçün heç olmasa bürcünə çəkməmisən? Axı sən "Şir" bürcündənsən. Həmişə güclü, əzəmətli, hökmran, diktator olmalısan.

Düşünmürük ki, axı bu uşaq "Şir" bürcündən deyil, "Qız" bürcündəndir. O, diqqətlidir, çalışqandır, istək və arzusunun reallaşması üçün əlindən gələni edəndir və bir o qədər də məsuliyyətlidir. Lakin hökmranlığı sevmir, diktator olmaq istəmir. Bu, onun xarakterinə yaddır.

Zaman gəlir, sevib sevilirik. Sevdiyimizin bürcü ilə maraqlanırıq. Oxuyub məlumat alırıq ki, onun bürcü ilə bizim bürcümüzün nikahda uğuru var? Amma əslində belə deyil axı. Çünki bizim bürcümüzün yerini dəyişdirib valideynlərimiz. Ailə qururuq. Baxırıq ki, yox, xasiyyətlərimiz uyğun gəlmir. Əsla bir yerdə yaşamağımız mümkün olmur. Belə olanda bürclərə inamsızlığımız yaranır. Hansı ki, bürclər bizim həyatımızın astronomik tərəfidir və onu da Allah bizim üçün uyğunlaşdırıb.

## Nəinki bürclər, ay, gün, saat, an belə bir taledir

Valideynlərimiz bilsələr ki, bizim dünyaya gəlişimizi müəyyənləşdirən Allah onu necə incə detallarla düşünüb-daşınıb həll edib, əsla bu cür hərəkətlərə yol verməzlər. Nəinki bürc, bizim hansı ayda, gündə, saatda, hətta anda belə dünyaya gəlməyimizin özünəməxsus tərəfləri, taleyimizdə böyük rol oynayan məqamları var.

Nə üçün bir iş görəndə deyirlər ki, kaş ki, işimizin üstünə filankəs gələrdi, ayağı çox uğurludur. Nə üçün qonşu səhər-səhər evdən çıxıb bir işin dalınca gedəndə darvazadan boylanır ki, görüm yan qonşu küçədə deyil. Bilir ki, qarşısına o çıxsa, işi alınmayacaq. Nə üçün biz xeyirli bir iş üçün gedəndə evdəki beş-altı ailə üzvündən məhz birinə deyirik ki, gəl, bu işi sən başla? Çünki bu insanların gününün hansı saatında dünyaya gəlməsi ilə bağlı uğurlu-uğursuz olmaları da müəyyən edilir. Sübh çağı, günorta və axşamçağı doğulan insanlar arasında günün vaxtlarına görə də fərqlər var ki, bu fərqlə həyatımızı başa vururuq.

Lakin müasir dövrümüzdə günləri də, saatları da, hətta ayları da dəyişdiririk. Bu adamın, necə deyərlər, ayağı sayalı olduğu halda, axşamçağı doğulub deyə onu o cür tanımırlar. Və yaxud da əksinə. Bəli, beləliklə də səhv addımımızla, doğum günlərinin üst-üstə, yanyana, yaxın, əlamətdar günlərlə qoşa düşməsi naminə talelərimizdə, həyat tərzimizdə də dəyişikliklər edirik. Belə olan halda isə...

## Allaha ehtiyac duymayanlar...

Bəli, belə olan halda ağıla gələn yalnız o olur ki, bəzi insanlar Allaha ehtiyac duymur. Yəni özləri özləri üçün lazım olanı müəyyən edirlər. Hansı ki, onların hər birini bizə bəxş edən yaradıcı bir qüvvə var. Əgər o Yaradan olmasa, əslində heç nəyimiz olmaz.

Düşünürəm ki, oturub qarşımıza papağımızı qoyub fikirləşməyin vaxtı çoxdan çatmışdır. Lakin biz fikirləşməkdə də, düşünməkdə də hər zaman olduğu kimi gec qalırıq.

Övladlarımız, onların gələcək taleyi naminə oturub fikirləşməliyik. Fikirləşdikcə də özümüzə sual verməliyik ki, əgər bütün bunlara biz qərar verməliyiksə, Allah nə üçündür bəs?

Nə üçün, nəyə görə övladımızın dünyaya gəlişinin real vaxtını gözləmirik? Nə üçün gözləməməliyik? Burada tələsik nə var ki? Axı nə üçün övladımızla həyat yoldaşımızın doğum günü eyni vaxtda olmalıdır. Nə üçün qızımızla nənəsinin ad günü eyni gündə qeyd olunmalıdır. Nə üçün oğlumuz böyük qardaşı ilə bir günün sevincini paylaşmalıdır... "Filan tarixdə hansısa bir qohumun toyu olacaq və mən o toyda hökmən iştirak etməliyəm",- deyə nə üçün övladımızın doğum gününü qabağa çəkməliyik, bürcünü dəyişməliyik? Allahın ona bəxş etdiyi cümə gününü çərşənbə ilə, Allahın ona bəxş etdiyi sübh çağını axşamçağı ilə, Allahın ona bəxş etdiyi saatı başqa saatla əvəzləşdirməliyik? Nə üçün? Məgər biz tale yazanıq?

Taleni Allah yazır. Ulu Yaradanın bir anı belə min bir məna ilə, dəyərlə, qismətlə əlaqəlidir. Allahın bəxş etdiyi doğum günü bizim Yaradanımızla bağımızdır. Allah bu bağla bizi idarə edir. Bizsə o bağı qopardırıq. Övladımızı gələcək çətinliklərlə üz-üzə qoyuruq. Elə bir çətinlik yaradırıq ki, nə o özünü tanıyır, nə də biz dünyaya gətirdiyimizi. Qalırıq müəmmalı nüanslar qarşısında. Sual dolu bir həyat qarşısında...

Bəsdir, deməyin vaxtıdır. Biz həyatımızın bütün tərəflərinə müasirlik gətirdik. Qapılarımızı Avropanın üzünə açdıq, dedik ki, gəl, xoş gəlmisən, keç yuxarı başa. O da keçdi oturdu yuxarıda. Nəyi istədi, verdik ona. Geyimimizdən tutmuş yeməyimizədək, hərəkətlərimizdən tutmuş davranışlarımızadək. Ta bu qədər yetər axı. İndi də doğum tarixlərimizi bada verməliyik? Belə olmaz axı.

Analar Avropa qadınlarının yolu ilə gedib təbii doğuşa deyil, keysəriyyəyə üstünlük verəcək deyə, övladlar nə üçün bürcünü, ayını, gününü, saatını itirməlidir? Etməyin bunu, analar, böyüklər. Övladlarınızı məxsus olduqlarından məhrum etməyin.

## Son söz

Dünyaya insan gəlir. Hər gün... Yüzlərlə, minlərlə. Hər birinin də doğulmazdan əvvəl taleyi doğulur, özü ilə bərabər, alnında yazısını da gətirir. Və elə o andan, o saatdan başlayaraq alın yazısı ilə həyatına davam edir.

Biz dünyaya kişimi, qadınmı gələcəyik, buna qərarı Allah verir. Biz dünyaya hansı ayın hansı günündə gələcəyik, buna da qərarı Allah verir. Bəs biz hansı bürcə, hansı ilə aid olacağıq, bəli, buna da qərarı Allah verir. Allahın qərarı ilə, yəni bizim hansı aya, hansı günə, hansı bürcə aid olmağımızla da xarakterimiz formalaşır, taleyimiz həmin bürcə, ilə, aya, günə uyğunlaşdırılmış şəkildə yazılır. Belə isə, gəlin, nəsibimiz olana üstünlük verək.

***Mətanət Məmmədova***

# Duyğuların və Zəfərin fəsli



Bu, cansız bir tablo deyil, evlərimizin divarından da asılmayıb. Onunla hər gün yüzlərlə insanın keçdiyi şəhərimizin küçə, meydanlarında, park və xiyabanlarında qarşılaşırıq. Bu tablonun "müəllifi" bir aydır, yayın geri çəkilib, yerini öz "əlləri" ilə təhvil verdiyi payızdır. Budur, ağacların ağ saçlara dən düşmüş kimi yaşıldan sarıya çönən yarpaqları hələ də özünü payızın solğun günəşinə təslim etməyib yaşıllığını saxlayan otların üstündə qəribə bir harmoniya yaradıb. Bir azdan xəfif bir külək əsir - payız küləyi. Xəzəl ömrü yaşayan yarparların havada rəqsinə bir bax? Bu külək payızın hələ tam hakim kəsilmədiyi ağaclardan yalnız özünə məxsus olan sarı yarpaqları qoparıb alır qarşısına.



Küçələrdə, səkilərdə bir-biri ilə sanki "qovalaqaç" oynayır yarpaqlar, biri qaçır, o birilər düşür onun ardınca. Nəhayət, toplaşırlar özlərinə sığınacaq sandıqları bir divarın dibinə, bir ağacın altına. Bu dəfə artıq külək yarpaqları yerindən qopara bilmir, lakin onun təsirindən adamın qulağında bir-birinə toxunan xəzəllərin "xışıltı" adlı nəğməsi səslənir. Gözlər önündə, həqiqətən də, baxmaqla doyulmayan bir tablo var - payız tablosu. Səhərdən bəri şəhərimizdəki parklardan birində qarşısında dayandığım bu canlı tablonu daha bir qədər də seyr etmək üçün skamyalardan birində əyləşirəm.



Bir-birini əvəz edən mənzərələr məni xəyalən iki il əvvələ aparır- 44 günlük o payıza- Qarabağda Zəfər qazandığımız o payıza 30 il Qarabağa kabus kimi çökən, baharın gəlməsini əngəlləyən o payıza İşğal altında olan baharsız torpaqlarımızın payızına Axı bu torpaqlar qovmuşdu baharı da, yayı da. Onlar bir qışla, bir də ki, payızla qəm ortağı, kədər yoldaşı olmuşdular. Azad olunanadək günəşsiz qalacaqlarına, baharın allı-güllü yaylığını başlarına salmayacaqlarına söz vermişdilər. Beləliklə də bu torpaqlara bir payız, bir də qış hakim olmuşdu. Günəşsiz payız, soyuq, sazaq, saralmış yarpaqlar, bir də ağappaq qar

Qarabağ doğmasının ayaqlarını sinəsində duyanda baharı çağıracaqdı, çəməninə-düzünə al-əlvan güllərini səpələyəcəkdi. Başından qara örpəyini çıxarıb, al rənglini taxacaqdı.



2020-nin 44 günü- 44 günlük payızı, 30 illik bu yurdlara hakim payız özü öz əllərilə gətirdi baharı bu ellərə. Bir qərinəyə yaxın hökmranlığım ta bəsdi, dedi. Çəkildi bir kənara, yerini verdi o soyuqda, o sazaqda allı-güllü bahara. Minlərlə oğlumuzun-igid, qəhrəman övladımızın gəlişi ilə Qarabağa günəş doğdu. Torpaq, yurd-yuva, el-oba üçün axan qanlar çəmənlərin-düzlərin al-əlvan güllərinə, çiçəyinə döndü. Üçrəngli bayrağımız azad edilən yurdların başı üstündə dalğalandıqca, bu ellərə nəfəs gəldi, yaşamaq həvəsi gəldi.

Payız payızlığını göstərdi. Xəzəli ilə bircə anlıq yuxusunda əsgərimin başının altına yastıq, üstünə yorğan oldu. Özünü tutdu saxladı, yağışların çox yağdırmadı. Palçıq olar, əsgərimə əngəl olar, deyə Əksinə bir kənara çəkilərək baharı səslədi. Lakin bahar vaxtı olmadığından əsgərim üşüdü də, dondu da, lakin bir addım da çəkilmədi. Ruhundakı baharla-günəşlə payızıonun sazağını dəf etdi. İrəliyə-irəliyə gedərək torpaqları yağıdan bir-bir azad etdi.

Payız ana oldu 44 gündə- Payız ana. Torpaq üçün canlarından keçərək şəhid olan övladları anasından əvvəl payız aldı qucağına. Oxşadı, öpdü üz-gözündən, göz yaşını leysan edib axıtdı üzlərinə. Minlərlə şəhidimə bayatı qoşdu, minlərlə qazimi qoynuna aldı, gizlətdi, ölməyə qoymadı.

Payız fəsillər fəsli oldu 44 gündə. 30 ilin işğalının sonu oldu Qarabağda. Elə o ildən də payız fəsillərin tacı oldu. Şəhidimizin şahidi kimi, Zəfərimizin də şahidi oldu.

Küçələrlə heç bir manea rəqslərinə, qaçışmalarına xələl gətirməyən yarpaqların xışıltısı, bir də toran vaxtı olduğu üçün küçə işıqlarının bərq vurması ilə xəyallardan ayrılır, ətrafa nəzər salıram. Daha valehedici mənzərələrlə qarşılaşıram: işıq şüaları üzərinə düşən yarpaqların parıltısı, qızılı-sarı yarpaqların skamyaların üzərindəki gözəl xalı görüntüsü, yanımdan dəstə-dəstə ötən insanların payızın xoş mənzərələrini bir-birilərinə göstərərək onu körpə bir uşaq kimi oxşamaları... Bir qədər aralıda qoca, cavan, uşaq-bir xeyli adamın bu təmiz havanı ciyərlərinə çəkmək üçün gəzişdikləri və addımların xəzəlin yeni bir "nəğməsini" yaratdığını..

Qalxıram Sıx ağacların cərgəsi önündə addımlayıram. Payızın yeni bir nəğməsini dinləyə-dinləyə addımlayıram. Bu nəğmə payızın qürur nəğməsidir. Payız fəxr edir Qarabağ qələbəsi ilə, o qələbəyə şahidlik etməsi ilə. O qələbənin onun qoynunda qazanılması ilə Dinlədiyim nəğmədə bütün bunlar həzin-həzin misralanıb, bəndləşib, gözəl, könülləri oxşayan, qəlblərə qürur, sevinc dolduran bir nəğməyə çevrilib. Bu nəğmə payızın tablosu qarşısında onun füsnunu bir qədər də gözəlləşdirir. Baxdıqca doyulmaz, gözləri, könülləri oxşayan edir: Zəfər fəslini, qürur fəslini, rənglərin harmoniyası ilə özü öz rəsmini çəkən payız fəslini

***Mətanət Məmmədova***



Elçin Bayramlı

# Qlobal psixotron terror: müdafiə olunmayanlar məhv olacaq

***Son yarım əsrdə dünyada ailə anlayışı və dəyərləri köklü şəkildə dəyişməyə başlayıb. Daha doğrusu dəyişdirilməsinə başlanıb. Bu istiqamətdə qlobal planların həyata keçirildiyi, qlobal təbliğat üçün yüz milyardlarla dollar vəsaitlər ayrıldığı heç kimə sirr deyil. Əsas məqsəd bütün mənəvi dəyərlərin dağıdılması, süni, heç bir mənəvi-əxlaqi kriteriyaya olmayan, zombiləşdirilmiş insan kütləsinin formalaşdırılmasından ibarətdir. Burada ən əsas məqamlardan biri də ənənəi ailə sisteminin dağıdılmasından ibarətdir. Bu istiqamətdə saysız hesabsız layihələr həyata keçirilir, media, kino, serial və sair kütləvi təbliğat vasitələri ilə peşəkar təşkil olunan kampaniyalar təşkil olunur.***

Çox təəssüf ki, bu psxtron mənəvi terror kampaniya xüsusən də şərq ölkələrinə qarşı aparılır. Onlardan biri də, süni mayalanma və ya ailəsiz uşaq dünyaya gətirmənin təbliğidir.Süni mayalanma və bu kimi digər texnologiyaların inkişafı qadınlara kişi partnyor və ya evlilik olmadan ana olmaq imkanı verir.

Əgər əvvəllər bu, yalnız övlad sahibi ola bilməyən ailələr üçün bir tibbi çıxış yolu idisə, indi bir çox Qərb ölkəsində qadınlar sosial seçim kimi bu üsula müraciət edirlər. Bu isə cəmiyyətin əsas dayağı sayılan ailə institutuna ciddi təsirlər göstərir.

Azərbaycan cəmiyyətində hələ ki, bu hal nadir müşahidə olunsa da, prosesin dünyada sürətlə yayılması artıq sosial və mənəvi müzakirə mövzusuna çevrilib. Bilinməyən kişi donordan dünyaya gətirilən uşaqların atasız böyüməsi sosial, psixoloji və mənəvi baxımdan çox ciddi nəticələr doğura bilər. Bunun nəticəsində bacı-qardaş evliliyindən tutmuş çox sayda problemlər yaranır.

Bu prosesi sırf texnoloji yenilik deyil, qlobal ideoloji terrorun bir hissəsi kimi qiymətləndirmək lazımdır. Süni mayalanma da bu siyasətin bir parçasıdır, yəni təbii ailə modelinin yavaş-yavaş sıradan çıxarılması. Dünyada ailə institutunun sarsıdılması planlı şəkildə həyata keçirilir. Təəssüf ki, bu gün bəşəriyyət çox qorxunc bir düşmənlə, şeytani bir qüvvə ilə üz-üzə qalıb. Dünyada elə bir sistem qurulub ki, elmi və texnologiyanı idarə edən, medianı, siyasəti, təhsili, qida və dərman biznesini, mədəniyyəti nəzarətə götürən qlobal qüvvələr bəşəriyyətin təbii fitrətini dəyişməyə çalışırlar. Məqsəd ailəni, əxlaqı və dini dəyərləri sıradan çıxarmaqdır.

Media, kino və seriallar vasitəsilə ailə və dəyərlərə qarşı psixoloji təbliğat aparılır. Transgen və süni qidalarla və dərman sənayesi üzərindən insanın genetik kodu dəyişdirilir. Texnologiyanın imkanlarından istifadə edilərək "süni insanlar" yetişdirilir, cəmiyyət mənəvi dəyərlərdən uzaqlaşdırılır .

Bu proses nəticəsində gənc nəsil milli, mənəvi və ailə dəyərlərinə laqeyd böyüyür. Tarixi, irsi və mədəni köklərdən uzaqlaşan, əyləncəni həyatın əsas məqsədi sayan bir nəsil formalaşır. Ailəsiz, sevgisiz, məsuliyyətsiz yaşamaq təbliğ olunur. İki qadının evlənməsi, iki kişinin ailə qurub övladlığa uşaq götürüb böyütməsi, qadınların kişi partnyor olmadan uşaq dünyaya gətirməsi... bütün bu anormallıqlar normallaşdırılır. Bu, bəşəriyyətin mənəvi deqradasiyasına aparan təhlükəli yoldur.

Milli mənəvi dəyərlərin, xüsusən də ailə dəyərlərinin qorunması dövlət və cəmiyyət səviyyəsində prioritet olmalıdır. Ailədə ata-ana modeli qorunmalıdır. Əks halda, fiziki və mənəvi baxımdan xəstə, dəyərlərsiz bir cəmiyyət formalaşacaq. İnsan yalnız texnologiya ilə deyil, mənəviyyatla da yaşamalıdır. Əks təqdirdə, gələcək nəsillər "zombi nəsli" deyilən, emosiyasız və dəyərlərsiz bir kütləyə çevriləcək.

Bütün bu proses məşhur "Overton pəncərəsi" sistemi ilə aparılır. Müsirlik, azadlıq adı altında bütün dəyərlərin gözdən salınması, adət və ənənələrin sıradan çıxarılması, biorobot məxluqlar formalaşdırılması planlarını özlərini "qlobalist transhumanistlər" adlandıran şeytani qüvvənin ideoloqları heç gizlətmirlər də, əksinə, bunu açıq şəkildə bəyan edirlər. Bu qlobal terror qarşısında hər bir xalq, cəmiyyət, dövlət özünü qorumağa məhkumdur. Əks halda məhv olacaq.

*EKSPERT AÇIQLADI*

# Azərbaycanda maklerlərin fəaliyyəti niyə hələ qanunla tənzimlənməyib?

Azərbaycanda əmlak bazarı sürətlə inkişaf edir, lakin "makler"lərin fəaliyyəti hələ qanunla tənzimlənməyib. Bu isə bazarda qeyri-peşəkar xidmətlərin artmasına və vətəndaşların haqsızlığa məruz qalmasına səbəb ola bilər. Dünyanın bir çox ölkəsində isə əmlak agentləri lisenziya, sığorta və etik qaydalarla qorunur. Bəs, Azərbaycanda makler fəaliyyəti nə zaman qanun çərçivəsində tənzimlənəcək? Azərbaycanda maklerlərin fəaliyyəti niyə hələ qanunla tənzimlənməyib?





Məsələ ilə bağlı əmlak eksperti Anar Nəsirov SİA-ya açıqlamasında bildirib ki, son illərdə Azərbaycanda, xüsusilə də Bakı şəhəri və onun ətraf qəsəbələrində əmlak bazarında əhəmiyyətli canlanma müşahidə olunur: "Yeni tikililər, torpaq sahələri və köhnə mənzillərə olan tələbatın artması bazarın sürətlə inkişaf etməsinə səbəb olub. Bu artan tələbat fonunda əmlak alqı-satqısı və icarəsi ilə məşğul olan maklerlərin və əmlak ofislərinin də sayı xeyli artıb. Lakin bu sahədə mühüm bir problem qalmaqdadır: maklerlərin fəaliyyəti hələ də qanunvericilik çərçivəsində tənzimlənmir. Hazırda Azərbaycanda bu sahədə fəaliyyət göstərən şəxslərin təxminən 70%-i qeyri-peşəkar hesab olunur. Yəni bu şəxslərin əksəriyyəti heç bir rəsmi təlim keçmədən, hər hansı bir lisenziyaya və ya dövlət qeydiyyatına malik olmadan bu sahədə fəaliyyət göstərir.

Bu vəziyyət bir sıra ciddi fəsadlara yol açır. Qeyri-peşəkar maklerlər tərəfindən edilən yanlış yönləndirmələr nəticəsində vətəndaşlar maddi zərərə uğraya, saxta sənədlərlə qarşılaşa və ya mənzillə bağlı hüquqi problemlərlə üzləşə bilərlər. Qanunsuz fəaliyyət göstərən maklerlər əmlak bazarında real qiymətlərin müəyyən olunmasına da mənfi təsir göstərirlər. Süni qiymət artımı və ya azaldılması, qeyri-rəsmi ödənişlər və aldatma halları bazarın şəffaflığını azaldır. Rəsmi qeydiyyatdan keçməyən maklerlər dövlətə vergi ödəmir, bu isə dövlət büdcəsinə əlavə gəlirin qarşısını alır. Dünyanın bir çox ölkəsində bu problem illər öncə qanunvericilik vasitəsilə həll edilib. Məsələn, Avropa ölkələrinin əksəriyyətində və ABŞ-da əmlak agentləri yalnız müvafiq təhsil və lisenziyadan keçdikdən sonra fəaliyyət göstərə bilərlər. Onlar müəyyən etik normalara riayət etməli, müştərilərlə müqavilə bağlamalı və peşə məsuliyyətini əhatə edən sığortaya sahib olmalıdırlar. Bu isə vətəndaşları daha çox qoruyur və bazarın daha sağlam inkişafına zəmin yaradır. İllərdir müzakirə mövzusu olan bu məsələ ilə bağlı müəyyən təşəbbüslər olsa da, hələlik konkret bir qanun layihəsi qəbul edilməyib. Son dövrlərdə isə bu istiqamətdə fəaliyyətlərin artdığı, aidiyyəti dövlət qurumlarının məsələyə diqqət yetirdiyi müşahidə olunur. Əmlak bazarının davamlı inkişafı və cəmiyyətin bu sahəyə olan etimadının artırılması üçün artıq makler fəaliyyəti qanunvericilik çərçivəsinə salınmalı və peşəkarlaşdırılmalıdır".

***Arzu Qurbanlı***

*SOSİOLOQ ŞƏRH ETDİ*

# "İnsan texnologiyanın sahibi olmalıdır, əsiri yox"

"Telefonomaniya - yəni mobil telefondan, xüsusilə də sosial şəbəkələrdən və smart texnologiyalardan həddən artıq asılılıq bu gün cəmiyyətin bütün təbəqələrinə sirayət edən ciddi sosial problemdir". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, müasir dövrdə bu hal təkcə fərdi davranış pozuntusu kimi deyil, həm də ictimai həyatın, ailə münasibətlərinin, təhsil və əmək məhsuldarlığının keyfiyyətinə birbaşa təsir edən təhlükəli bir tendensiyadır: "Əvvəllər telefon insanların sadəcə əlaqə vasitəsi idi, indi isə o, həyatın mərkəzinə çevrilib. Xüsusilə gənclər və yeniyetmələr üçün telefon bir növ kimlik göstəricisinə, sosial varlığın ölçüsünə çevrilib. Sosial mediada "bəyənilmə" və "izlənmə" sayı üzərindən formalaşan virtual status insanları real həyatdan uzaqlaşdırır, sosial tənhalığa və özünə qapanmaya gətirib çıxarır. Bu proses nəticəsində insanlar getdikcə reallıqla əlaqəsini itirir, münasibətlərin dərinliyindən çox səthi ünsiyyət formalarına üstünlük verirlər. Telefonomaniya ailə və cəmiyyət münasibətlərinə də ciddi zərbə vurur.





Valideynlər və övladlar arasında ünsiyyət azalır, insanlar bir evdə olsalar da bir-birlərinə deyil, ekranlara baxırlar. İş və təhsil mühitində diqqətin dağılması, məsuliyyət hissinin zəifləməsi, asılılıq nəticəsində yaranan stress və emosional gərginlik cəmiyyətdə sosial balansı pozur. Sosial mediada yaradılan saxta mükəmməllik obrazları isə xüsusilə gənclərdə özünə inamsızlıq, narazılıq və sosial müqayisə hissini artırır. Bu problemdən xilas olmağın əsas yolu texnologiya ilə məsafə saxlamağı öyrənməkdir. Telefon gündəlik həyatın məqsədinə çevrilməməli, bir vasitə kimi qalmalıdır. Fərdlər öz zamanlarını idarə etməyi, texnologiyadan məqsədyönlü şəkildə istifadə etməyi bacarmalıdırlar. Valideynlər övladlarına erkən yaşlardan balanslı istifadə vərdişlərini aşılamalı, məktəblər və universitetlər "rəqəmsal savadlılıq" dərslərində bu məsələni sosial məsuliyyət kontekstində izah etməlidirlər.



Eyni zamanda, dövlət və ictimai təşkilatlar bu istiqamətdə maarifləndirici layihələr həyata keçirməli, "rəqəmsal asılılıqla mübarizə" proqramlarının əhatəsini genişləndirməlidirlər. Mədəni, idman və ictimai tədbirlərin təşviqi insanları real ünsiyyət və fəaliyyət mühitinə qaytarmaq üçün ən təsirli vasitələrdəndir. Nəticə etibarilə, telefonomaniya texnoloji deyil, mənəvi problemdir. İnsan texnologiyanın sahibi olmalıdır, əsiri yox. Xilas yolu ondan imtina etməkdə deyil, onun üzərində nəzarəti bərpa etməkdədir. Texnologiya insanın həyatını asanlaşdırmalı, onu həyatın mənasından uzaqlaşdırmamalıdır".

***Ziya Hikmətoğlu***



# “Nəzərdə tutulanların hamısı yerinə yetirilir”



“Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri çərçivəsində həmkarı Kasım-Jomart Tokayevlə keçirdiyi təkbətək görüş, onların birgə iştirakı ilə keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şurasının ikinci iclası, eləcə də mətbuata verdikləri bəyanatlar və imzalanan sənədlər iki qardaş ölkə arasında strateji tərəfdaşlığın gələcək istiqamətlərini aydın şəkildə ortaya qoydu, münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu nümayiş etdirdi. Tarixi Zəfərimizdən ötən beş il ərzində həm türk dövlətləri arasında ikitərəfli münasibətlər, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq dinamik şəkildə inkişaf edib. Bu inkişaf dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivliyində və Türk Dövlətləri Təşkilatının Zirvə görüşlərinin məzmununda aydın şəkildə özünü göstərir. Prezident İlham Əliyevin təşəbbüsü ilə hər il təşkil olunan Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi görüşlərinin ənənə halını alması da bu əməkdaşlığın mühüm göstəricisidir. Bütün bu addımlar türk dünyasında birliyin və həmrəyliyin daha da möhkəmlənməsinə xidmət edir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib.

K.Bayramov qeyd edib ki, ikitərəfli görüşlər və imzalanan sənədlərin ardından, oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata birgə bəyanatlarla çıxış ediblər: ”İlk olaraq Prezident Kasım-Jomart Tokayev mətbuata bəyanatında Azərbaycan liderinə dərin ehtiramını ifadə edərək bildirib: ”Azərbaycan Prezidentinin dövlət səfərini ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolunda çox mühüm hadisə və addım kimi qiymətləndirirəm. İlham Heydər oğlu Əliyev tarixi miqyasda görkəmli dövlət xadimidir. O, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün müdafiəsinə və möhkəmləndirilməsinə həlledici töhfə verib. Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın dünya arenasında nüfuzu və təsiri dəfələrlə güclənib. Onun güclü liderliyi ilə Azərbaycan bir çox sahələrdə, hər şeydən əvvəl sosial-iqtisadi inkişafda böyük uğurlar qazanıb. Genişmiqyaslı islahatların nəticələri iqtisadiyyatın davamlı artımında, vətəndaşların rifahının yüksəldilməsində, Sizin ölkənizin dinamik şəkildə dəyişməsində öz əksini tapır”.

Prezident İlham Əliyev çıxışında Azərbaycan və Qazaxıstan arasındakı münasibətlərin əsrlərdən bəri formalaşan ortaq tarixi, mədəni və mənəvi dəyərlərə söykəndiyini vurğulayıb. Dövlət başçısı bildirib: ”Xalqlarımızı ümumi köklərə, mənəvi və mədəni ortaqlığa əsaslanan çoxəsrlik dostluq, qardaşlıq birləşdirir. Dövlətlərarası münasibətlərimizi bu möhkəm bünövrə üzərində qururuq. Hətta son üç ildə ondan çox qarşılıqlı səfərlərə baxdıqda münasibətlərimizin necə intensiv xarakter daşıdığını əyani şəkildə görmək olar. Hər bir görüş, hər müzakirə son nəticəyə yönəlib. Bu gün sahə nazirliklərinin hesabatlarını, həmçinin gələcək planları dinlədik. Təbii ki, qarşılıqlı fəaliyyətimizi necə intensivləşdirmək lazım olduğuna dair öz əlavə təlimatlarımızı verdik. Bizim eşitdiklərimiz məmnunluq hissi doğurur. Çünki nəzərdə tutulanların hamısı yerinə yetirilir. Diqqət yetirilməsi və dövlət başçılarının iştirakı tələb edilən məsələlər olduqda, təbii ki, bu, bizim daimi nəzarətimiz altındadır”.

Deputat diqqətə çatdırıb ki, səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə ”Orta Dəhlizin inkişafı” (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) layihəsinin təqdimatı keçirilib. Təqdimat zamanı bildirilib ki, Çin və Orta Asiya ölkələrini Avropa ilə birləşdirən bu mühüm nəqliyyat-logistika marşrutu regional və qitələrarası ticarətin gücləndirilməsində strateji əhəmiyyət daşıyır. Qeyd olunub ki, Çindən Azərbaycana yükdaşımaların həcmi hər il artmaqdadır və 2030-cu ilədək bu göstəricinin hazırkı səviyyə ilə müqayisədə üç dəfə artacağı proqnozlaşdırılır. Bu isə öz növbəsində Orta Dəhlizin əhəmiyyətini daha da artırır. Dövlət başçılarına, həmçinin dəhlizin səmərəliliyini və rəqabət qabiliyyətini yüksəltməyə yönəlmiş konkret addımlar və gələcək təşəbbüslər barədə ətraflı məlumat təqdim olunub.

K.Bayramov əlavə edib ki, dövlət başçısı İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclası iki ölkə münasibətlərinin strateji dərinliyini və qarşılıqlı əməkdaşlığın geniş potensialını nümayiş etdirdi. Prezident İlham Əliyev çıxışında Qazaxıstanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə verdiyi ardıcıl dəstəyə görə təşəkkürünü ifadə edərək bildirdi ki, bu mövqe həm siyasi dialoqda, həm də beynəlxalq platformalarda öz təsdiqini tapır. Toplantı, eyni zamanda, gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi və tərəfdaşlığın daha yüksək mərhələyə çatması baxımından mühüm əhəmiyyət daşıyır”.

***Səbinə Hüseynli***

# Uşaqlar niyə tez-tez xəstələnirlər?

*AYDINLIQ GƏTİRİLDİ*

”Uşaqların tez-tez xəstələnməsi valideynlər üçün həm narahatlıq, həm də sual doğuran bir mövzudur. Əslində isə bu çox vaxt normal və təbii bir prosesdir”. Bu barədə SİA-ya açıqlamasında pediatr Elşən Tağıyev deyib.

Onun sözlərinə görə, uşaqların immun sistemi hələ tam formalaşmadığı üçün onların orqanizmi müxtəlif mikroblarla ”tanış olma” mərhələsində olur: ”Körpələr dünyaya gələndə immun sistemləri hələ tam yetkinləşmir. Onlar ilk altı ayda anadan keçən passiv immunitetlə qorunurlar, lakin bu qoruma tədricən azalır. Sonrakı illərdə uşaq müxtəlif virus və bakteriyalarla qarşılaşdıqca immun sistemi ”öyrənir” və güclənir. Məhz bu səbəbdən 1-6 yaş arası uşaqların ildə 8-10 dəfə soyuqdəymə və ya virus infeksiyası keçirməsi normal hesab olunur. Bağça və məktəbə başlayan uşaqlar çoxsaylı mikroblarla təmasda olurlar. Bu, onların immun sistemi üçün bir növ ”təlim meydanı” sayılır. Uşaqların bir-biri ilə sıx ünsiyyətdə olması, oyuncaqları paylaşması, əlləri tez-tez ağızlarına aparması, eləcə də asqırma və öskürmə zamanı yaxın təmas mikrobların asan yayılmasına şərait yaradır.



Digər tərəfdən, uşaqlarda burun, boğaz və ağciyər strukturları hələ kiçik və həssas olur. Selikli qişalar tez qıcıqlanır və virusların daxil olmasına şərait yaradır. Bundan əlavə, bəzi viruslara qarşı immun yaddaş yalnız xəstəliyi keçirdikdən sonra yaranır. Yəni, uşaq hər dəfə fərqli bir virusla tanış olur və bu da onun müdafiə sisteminin təbii şəkildə möhkəmlənməsinə kömək edir.

Qidalanma və yuxu rejimi də uşağın immun sisteminə birbaşa təsir göstərir. Zəif qidalanma, az yuxu və stress müdafiə mexanizmini zəiflədir. İmmuniteti gücləndirmək üçün uşağın rasionunda dəmir, sink və D vitamini balansı qorunmalı, təzə meyvə-tərəvəzlə zəngin pəhriz saxlanmalı, kifayət qədər su qəbul edilməli və gecə 10-12 saat yuxu təmin olunmalıdır. Payız və qış aylarında uşaqlar daha çox qapalı məkanlarda vaxt keçirirlər, bu isə mikrobların daha asan yayılmasına gətirib çıxarır. Bəzi uşaqlarda allergiya və burun tıxanıqlığı infeksiyalara qarşı əlavə zəmin yaradır. Çünki burun nəfəsi pozulanda mikroblar orqanizmə daha asan daxil olur.

Uşaqların tez-tez xəstələnməsi hər zaman qorxu doğurmamalıdır. Lakin bəzi hallarda pediatra müraciət vacibdir. Əgər hər infeksiya ağır keçir, uşaqda çəki artımı zəifdir, uzunmüddətli öskürək, təkrarlayan qulaq və ya sinus iltihabları müşahidə olunur, yaxud qan analizlərində immun çatışmazlıq əlamətləri varsa, bu zaman həkimə müraciət edilməlidir. Belə hallarda həkim immun sistemin vəziyyətini dəyərləndirmək üçün əlavə müayinələr təyin edə bilər. Uşağın sağlam inkişafı üçün vaxtında həkim nəzarəti, düzgün qidalanma və gigiyenik vərdişlər böyük əhəmiyyət daşıyır”.

***Günel Fərzəliyeva***




## Mərkəzi Gömrük Hospitalında ”BBraun” şirkətinin nümayəndə heyəti ilə görüş keçirilib

22 oktyabr 2025-ci il tarixində Mərkəzi Gömrük Hospitalında Almaniyanın ”BBraun” şirkətinin nümayəndə heyəti ilə müasir tibbi texnologiyalar və əməkdaşlıq perspektivlərinə həsr olunmuş görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, tibb üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov, Alqı-Satqı şöbəsinin rəisi Akif Əskərov, ”BBraun” şirkətinin Cənub-Şərqi Avropa və Mərkəzi Asiya üzrə baş meneceri Qordon Volksen, Şimal-Şərqi Avropa üzrə biznesin inkişafı üzrə baş menecer Mark Binder, satış meneceri Saskia Pitç və digər rəsmi nümayəndələr iştirak ediblər.



Tədbir zamanı tərəflər arasında tibbi texnologiyaların təkmilləşdirilməsi, innovativ avadanlıqların tətbiqi, eləcə də klinik sahədə təcrübə və bilik mübadiləsinin aparılması istiqamətində əməkdaşlıq perspektivləri ətrafında geniş müzakirələr aparılıb. Görüşün sonunda qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın davam etdirilməsi və gələcəkdə birgə layihələrin həyata keçirilməsi ilə bağlı razılıq əldə olunub.

# Zəngilandan başlanan Böyük Qayıdış

***Son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən beş il ötsə də hərb tarixində yeni səhifə açmış 44 günlük Vətən müharibəsindən ölkəmizdə, eləcə də dünya ölkələrində hələ də danışılır, müzakirələr aparılır. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. Xalq-Dövlət-Ordu birliyinin ən yüksək səviyyədə olduğunu bütün dünya gördü. Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti və nəticələri hələ uzun müddət təhlil ediləcəkdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yürütdüyü güclü daxili və xarici siyasət, Prezident kimi fəaliyyəti dövründə qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər, qazandığımız qələbəni şərtləndirən başlıca amillər sırasındadır.***




44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olunan ərazilərimizdə bu gün bayram ovqatı, sevinc hökm sürür. Vətən müharibəsinin 24-cü günü - 2020-ci il oktyabrın 20-si hərb tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi həkk olunub. Dövlətimizin başçısı 2023-cü il iyulun 31-də imzaladığı müvafiq Sərəncama əsasən şəhərin işğaldan azad edildiyi 20 oktyabr tarixi Zəngilan Şəhəri Günü kimi qeyd olunur. Sərəncam işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

## ”ZƏNGƏZURUN ŞƏRQİNDƏ DƏ, QƏRBİNDƏ DƏ AZƏRBAYCAN XALQI ƏSRLƏR BOYU YAŞAMIŞDIR”

44 günlük Vətən müharibəsində Cəbrayıl və Füzulidən sonra döyüş meydanında azad olunan 3-cü şəhər Zəngilan oldu. 29 oktyabr 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayon işğal olunmazdan qabaq erməni qüvvələri tərəfindən tam olaraq mühasirəyə alınmış və on minlərlə insan qırılmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Hər tərəfdən mühasirədə qalan sakinlər Araz çayını keçərək, xilas olmuşdular. Xatırladaq ki, Zəngilan inzibati rayon kimi 1930-cu ildə təşkil edilmişdir. Rayonun ərazisi müxtəlif tarixi dövrlərdə ayrı-ayrı inzibati ərazi bölgülərinə məruz qalmışdır. Rusiyanın işğalı zamanı 1828-ci ilə qədər bölgənin ərazisinin Bəsitçaydan qərbə tərəf hissəsi Naxçıvan, şərqə tərəf hissəsi isə Qarabağ xanlığının tərkibinə daxil olur. XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra yeni ərazi-inzibati bölgüsü aparılır. 1868-ci ildə Yelizavetpol quberniyası yaradılır. Onun tərkibində Şuşa, Yelizavetpol və Zəngəzur qəzaları yaradılır. Yeni bölgüyə əsasən, Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasına daxil edilir.

”Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayandan bir neçə ay sonra Zəngəzur da bizim əlimizdən alındı. Bu tarixi də hər kəs bilməlidir, 1920-ci ilin noyabrında sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana verildi. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşamışdır və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri, bütün kəndlərin milli tərkibi Azərbaycan xalqına məxsus idi”, - deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirib.

Son iki yüz ildə vahid təbii sərhəddə malik olmayan Zəngilan 1930-cu ilin avqustunda müstəqil rayon kimi formalaşır və dəqiq müəyyən olunmuş bir ərazisi olur. Zəngilan rayonunda bir şəhər, 5 qəsəbə (Ağ oyuq, Mincivan, Bartaz, Ağbənd, Həkəri) və 79 kənd olmuşdur. Burada müxtəlif dövrlərə aid daş abidələri vardır. Hər daşında bir tarix yaşayır. Hər bir ərazisi Azərbaycan tarixindən xəbər verir. Belə zəngin tarixi ilə tanınan Zəngilanın artıq müharibənin 24-cü günündə bir neçə kəndi və Zəngilan şəhəri artıq işğaldan azad olundu.

## ”TƏHLÜKƏSİZLİK, RAHATLIQ, RİFAH, MƏŞĞULLUQ VƏ GƏLƏCƏK İNKİŞAF”

Böyük Qayıdış Zəngilan rayonunda ”Ağıllı kənd” konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Qısa bir zamanda abadlıq-quruculuq işləri start götürdü. Cənab Prezidentin bildirdiyi kimi, biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Bildiyimiz kimi, birinci ”Ağıllı kənd” pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin ”ağıllı” işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Bəli, artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağalı kəndində ”Ağalı” hotelinin açılışını edib. ”Ağalı” hoteli Zəngilan şəhər mərkəzindən 20 kilometr məsafədə, Həkəri çayı vasitəsilə yaradılmış süni gölün sahilində yerləşir. Hotelin binası üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır.

## YAŞIL ENERJİ ZONASININ YARADILMASI

Əlbəttə ki, işğaldan azad olunan ərazilərimizdə infrastruktur layihələr, yeni yolların çəkilişi, yaşayış yerlərinin təməlinin qoyulması, iaşə müəssisələrinin açılışı və s. plnlı şəkildə layihələr əsasında həyatı keçirilir. Məqsəd insanların rahatlığının və firavanlığının təminatıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ”AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin ”Zəngilan” və ”Şayıflı” Su Elektrik stansiyalarının açılışlarını etməsi ərazilərdə görülən işlərin planlı şəkildə həyata keçirilməsinə söykənir. İşğaldan azad edilən ərazilərdə yaşıl enerji zonasının yaradılması, rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində hər birinin gücü 10,5 meqavat olmaqla dörd yerdə ümumi gücü 42 meqavat olan ”Zəngilan” Su Elektrik stansiyaları silsiləsi layihələndirilərək qısa vaxt ərzində tikilib. İşğaldan azad edilən ərazilərdə ən böyük silsilə su elektrik stansiyası olan Zəngilan silsiləsindən ”Cahangirbəyli” SES 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. ”Şayıflı” və ”Zəngilan” SES-lər açılışa hazır vəziyyətə gətirilib, ”Sarıqışlaq” SES-də isə işlər başa çatdırılıb.

Araz çayının sol qolu olan Oxçuçay üzərində inşa edilən SES-ləri su ilə təmin etmək üçün dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Hər birinin gücü 10,5 meqavat olmaqla ümumi gücü 21 meqavat olan ”Zəngilan” və ”Şayıflı” SES-lər üçün maşın zalları tikilib. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək ”Zəngilan” və ”Şayıflı” SES-lərdə rəqəmsal qaydada məlumatların axını mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəedilməsi təmin olunub. Hər iki SES-lərdə il ərzində hər birində 30 milyon kilovat-saat olmaqla, ümumilikdə 60 milyon kilovat-saat yaşıl enerji istehsal ediləcək və bununla da 14 milyon kubmetr qaza qənaət edilməklə yanaşı, atmosferə atılan karbon qazının (CO2) həcmi 28 min ton azalacaq.

Zəngilanda görülən işlər bununla bitmir. Məlumdur ki, Ermənistan 30 illik işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrimizə qarşı vəhşiliklər törədib. Ermənilər şəhər və rayonlarımızda yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıdıb, təbii sərvətlərimizi talan edib, bu ərazilərdəki dini, tarixi, mədəniyyət abidələrimizi vandalizm aktlarına məruz qoyub. O cümlədən Zəngilan rayonundakı tarixi, dini, mədəniyyət abidələrimiz erməni təcavüzünün qurbanları sırasındadır. Burada da müqəddəs ocaqlarımız ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki tarixi məsciddən tövlə kimi istifadə olunub. XIX əsrdə inşa edilmiş və memarlıq abidəsi kimi inventarlaşdırılan məscid dağıdılıb, ilkin görkəmini 70 faizə qədər itirib. İşğal altında olan ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində bərpa-tikinti işlərinə başlanılmışdı. Xatırladaq ki, Zəngilanda yeni məscidin təməli şəhər işğaldan azad edildikdən sonra - 2021-ci il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Məscidin tikintisini Heydər Əliyev Fondu ”PAŞA Holdinq” MMC-nin dəstəyi ilə həyata keçirib. Konservasiya olunan tarixi məscidin yanında yeni məscid inşa edilib. Məscid binasında 220 və 100 nəfərlik ibadət zalları yaradılıb. Məscidin minarələri və günbəzi kaşı və kərpicdən yığılıb. İnteryerdə nəqqaşlıq işləri aparılıb, mehrab kaşıdan yığılmış nəbati naxışlarla işlənib. Minbər və şəbəkə elementləri təbii ağacdan hazırlanıb. İşğal dövründə dağıdılmış tarixi Zəngilan şəhər məscidinin ərazisində isə açıq səma altında sərgi yaradılıb. Burada işğalın ən ağır fəsadlarından biri kimi bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsinə dair faktlar yer alıb. Eyni zamanda, bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı aşkar edilib.

## ”BİZ TAM MÜSTƏQİLİK, HEÇ KİMDƏN ASILI DEYİLİK, ÖZ HƏYATIMIZI ÖZÜMÜZ QURURUQ”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlinin qoyulması bu ərazidə də aparılan abadlıq-quruculuq işlərinin davamlığına söykənir. Layihə üzrə şəhərdaxili yolların ümumi uzunluğu 31 kilometrdir. Layihənin birinci mərhələsində ümumilikdə 17,14 kilometr uzunluğunda yollar salınacaq. İki və dörd hərəkət zolaqlı bu yolların eni 18-34 metr olacaq. Yolboyu velosiped və piyada zolaqları yaradılacaq, yaşıllıqlar salınacaq. Horadiz-Zəngilan avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biridir. Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz-Zəngilan hissəsi ötən əsrin 80-ci illərində inşa edilib və otuzillik işğal dövründə tamamilə sıradan çıxarılaraq yararsız vəziyyətə salınıb. Uzunluğu 61 kilometr olan Horadiz-Zəngilan avtomobil yolunun əsaslı təmiri dövlətimizin başçısının müvafiq Sərəncamına əsasən həyata keçirilib. Təmir-tikinti işləri Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz-Zəngilan hissəsində aparılıb.

Görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda ”Ağıllı kənd” konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Bu gün isə əzəli sakinlərin səsi-sədası, toy-büsat çalğısı Füzulidən, Laçından, Şuşadan eşidilir.

Qarabağ və Şərqi Zəngəzurumuz yenidən qurulur. Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmalarına imkan yaranıb və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. ”Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir. Biz iqtisadi cəhətdən müstəqilik. Bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil. Bunu yaxın tarix göstərib. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq”.

***Zümrüd BAYRAMOVA***

# Uzun iş saatları və az istirahət: Azərbaycan və dünya qanunvericiliyində əmək hüquqları

***İş vaxtı və işçinin istirahət hüququ həm sağlamlıq, həm də əmək hüququ baxımından əsasdır. Bir tərəfdən müəssisələrin istehsal və xidmət tələbləri, digər tərəfdən işçinin istirahətə və şəxsi həyata vaxt ayırması arasında qanuni balans olmalıdır. Gündə 12 saat, ayda cəmi 1-2 gün istirahət etmək - həm əməyin təhlükəsizliyi, həm də əsası üzrə əmək qanunvericiliyinə görə ciddi suallar doğurur. SİA mövzu ilə bağlı araşdırma aparıb.***









## Azərbaycan üzrə vəziyyət (qanunvericilik və əsas məqamlar)

*Əsas norma (Əmək Məcəlləsi):*

Normal (tam) iş vaxtının gündəlik müddəti 8 saatı keçə bilməz. Həftəlik normal iş vaxtı 40 saatdır.

Altıgünlük iş həftəsi tətbiq olunarsa, günlük müddət həftəlik norma əsasında 7 saat, 6 saat və ya 4 saat kimi məhdudlaşdırıla bilər (həftəlik normaya görə).

Bəzi iş rejimlərində - növbəli iş, müvəqqəti yüklənmə, xüsusi rejimlər və kollektivi razılaşmalar çərçivəsində - gündəlik növbənin uzunluğu 12 saatadək müəyyənləşdirilə bilər (yəni növbəli və xüsusi rejimlər üçün 12 saat maksimumu nəzərdə tutulub), amma bu normal tam iş vaxtı kimi universal tətbiq edilmir və hüquqi şərtlərlə bağlıdır.

## Artıq iş (overtime) və məhdudiyyətlər:

Məcəlləyə görə əməkverən işçini artıq işə cəlb edə bilər, ancaq işçinin iki ardıcıl iş günündə əlavə 4 saatdan çox vəzifə yerinə yetirilməsi qadağandır (təhlükəli/həssas şərait üçün başqa limitlər - 2 saat). Başqa sözlə, ardıcıl iki gündə əlavə 4 saatdan artıq işlətmək ümumilikdə məhduddur.

Praktik tətbiqlərdə ümumi əlavə iş saatlarına həftəlik və illik limitlər də tətbiq olunur (maddələrə və nizamnamələrə görə məhdudiyyətlər müəyyənləşir). Mənbələrdə ümumi tövsiyə kimi overtime məbləği həftədə müəyyən hədd (məsələn, 12 saat) və ildə müəyyən məbləğ (məs. 240 saat) kimi qeyd olunur, lakin əsas hüquqi mənbə Əmək Məcəlləsidir və konkret hesablamalar rejimdən asılı ola bilər.

## Həftəlik/aylıq istirahət (days off):

Əsas norma beşgünlük həftədə iki günlük həftəlik istirahət, altıgünlükdə isə bir günlük istirahət nəzərdə tutur. Yəni qanun beşgünlük minimum istirahət dövrlərini təmin edir. Əgər müəssisədə xüsusi növbəli rejim tətbiq olunursa, işəgötürən günlərin kompensasiyasını təmin etməli və işçinin hüquqlarını (hüquqi fasilələr, əlavə ödənişlər və s.) qorumaq məcburiyyətindədir.

## Azərbaycan üçün qısa hüquqi cavab:

Xalis normativ (tam normal) iş rejimi üzrə gündə 12 saat işləmək və ayda cəmi 1-2 gün istirahət etmək qanuni deyil: normal olaraq gündə maksimum 8 saat və həftədə 40 saat nəzərdə tutulur. Həftəlik istirahət ən azı 1 (altıgünlük) və ya 2 (beşgünlük) günlük olmalıdır.

İstisnalar/özəlliklər var: növbəli iş və xüsusi rejimlər üçün gündə 12 saatadək növbə nəzərdə tutulsa da, bu hallar da əmək qanununda şərtləndirilir, əlavə iş limitləri, kompensasiyalar və işçinin mənafeləri qorunmalıdır. Ayda cəmi 1-2 gün istirahət isə ümumilikdə qanunun ruhuna və konkret məcəllə maddələrinə zidd görünür.

## Beynəlxalq / dünya təcrübəsi və standartlar

*Beynəlxalq İnstitutlar (İLO):*

ILO-nun tövsiyələri gündəlik və həftəlik fasilələrin vacibliyini, gecə işinin məhdudlaşdırılmasını və işçinin ardıcıl istirahət günlərinin təmin edilməsini vurğulayır (məsələn, gündəlik fasilə, 11 saatlıq fasilə, həftəlik fasilə kimi qaydalar müxtəlif konvensiyalarda və tövsiyələrdə yer alır). ILO həmçinin istehsal zəncirində iş vaxtı hesablamaları və kümulatif rejimlər üçün məhdudiyyətlər müəyyən edir.

## Avropa İttifaqı (Working Time Directive):

EU-da Working Time Directive işçilərə gündəlik ən azı 11 saat fasilə, həftəlik ən azı 24 (və ümumilikdə 48 saatdan artıq olmamaq şərtilə orta hesabla) kimi tələb qoyur. Eyni zamanda işçilərə həftədə müəyyən sayda fasilə və illik məzuniyyət hüququ təmin edilir. Bir çox Avropa hüquqi rejimlərində 12 saatlıq mütəmadi iş günləri və ayda 1-2 gün istirahət kimi ekstremal rejimlər qəbul edilmir.

## Dünya praktikasından nümunələr:

Qərb Avropa ölkələri daha qısa həftəlik iş vaxtına meyllidir (orta həftəlik real iş saatları 30-37 arası). Bəzi ölkələrdə xüsusi sektorlarda (səhiyyə, nəqliyyat, 24/7 xidmətlər) uzun növbələr olur, amma qanunlar növbətçilərin kompensasiyasını, fasilələri və limitləri qeyd edir. Digər tərəfdən bəzi ölkələrdə (xüsusilə əmək hüququ zəif tətbiq olunan yerlərdə) uzun iş günləri daha geniş yayılmışdır, lakin bu, beynəlxalq standartlarla uyğun deyil.

Müqayisə (Azərbaycan vs dünya standartları) - əsas məqamlar

## Normal gündəlik iş saatı

Azərbaycan: normal 8 saat/gün.

EU/ILO: məcburi minimal fasilələr + gündəlik məqbul saatlar; ILO əsas prinsipləri işçinin təhlükəsizliyini prioritetləşdirir.

## Uzadılmış növbələr / 12 saatlıq iş

Hər iki sistemdə (Azərbaycan və bir çox ölkədə) növbəli və xüsusi rejimlərdə 10-12 saatlıq növbələrə yer verilir, amma bunlar normal, daimi iş rejimi hesab edilmir; şərtlər, kompensasiyalar, məhdudiyyətlər və sağlamlıq qorunması tələb olunur.

## Həftəlik/aylıq istirahət:

Azərbaycan: beşgünlükdə 2 günlük istirahət; altıgünlükdə 1 günlük; xüsusi kümulatif rejimlərdə belə işçinin kompensasiyası və fasilələr nəzərdə tutulur. Ayda yalnız 1-2 gün istirahət qanunla uyğun gəlmir.

ILO/EU: minimum həftəlik fasilə, gündəlik fasilə və illik məzuniyyət standartları var; ayda 1-2 günlük istirahət normadan çox uzaqdır.

## Artıq iş (overtime) məhdudiyyətləri:

Azərbaycan: iki ardıcıl iş günündə əlavə 4 saatdan çox olmamaq kimi məhdudiyyətlər; ümumi həftə/il limitləri də tətbiq olunur.

Beynəlxalq: ölkəyə görə fərqlənir, lakin ümumilikdə əlavə iş saatlarına limitlər və kompensasiyalar mövcuddur.

Qanun baxımından: Azərbaycan qanunları çərçivəsində gündə daimi 12 saat işləmək və ayda sadəcə 1-2 gün istirahət etmək normal iş rejimi kimi qanuni deyil. 12 saatlıq növbələr müəyyən şərtlərlə (növbəli rejim, xüsusi sahələr) mümkündür, amma bu hallar da əlavə qorunma, kompensasiya və məhdudiyyətlərə tabe olur. Ayda 1-2 gün istirahət isə həm həftəlik istirahət normalarına, həm də ILO prinsiplərinə zidd görünür.

Təhlükəsizlik və sağlamlıq baxımından: uzun və fasiləsiz iş müddətləri işçinin sağlamlığı, diqqəti və təhlükəsizliyi üçün risk yaradır. Buna görə qanunvericilik yalnız saatları deyil, fasilələri və istirahət günlərini də məcbur edən standartlar müəyyən edib.

Əgər sən bu vəziyyətdənsənsə - nə etməlisən (praktik addımlar)

Əmək müqaviləni yoxla - iş vaxtı, növbə rejimi, əlavə ödənişlər və istirahət günləri necə göstərilib?

İş vaxtını sənədləşdir - işəgötürən tərəfindən tələb olunan əlavə saatları saat-saat yaz, qəbz, vaxt cədvəli saxla. Əmək Məcəlləsi iş vaxtı uçotunu tələb edir.

Əmək inspektorluğuna və ya peşəkar hüquqşünasa müraciət et - qanunun pozulması halında rəsmi məhkəmə və ya inspekciya şikayəti verilə bilər.

Ticarət/sənaye peşə təşkilatları və ya əmək birliyi varsa, onlarla əlaqə saxla - kollektiv müdafiə mümkündür.

Sağlamlıq baxımından diqqət et - uzun iş saatları xəstəlik və qəzalara səbəb ola bilər; tibbi yardımdan istifadə et, lazım olarsa həkimlə məsləhətləş.

***Ayşən Vəli***

# İtirdiyimiz xüsusiyyətlər: dinləmək



**XXIV YAZI**

Qədim bir yunan məsəlində deyilir ki, iki qulağımız, bir dilimiz var - deməli, az danışmalı, çox dinləməliyik. Danışma bacarıqlarından çox dinləmək bacarıqları ilə məşhur olan ingilislər isə həmişə "ağıllı insan çox dinləyər, az danışar" deyirlər. Elə öz dilimizdə də buna bənzər bir el məsəlimiz var: "ağıllı danışmazdan əvvəl dinləyər" kimi. "İtirdiyimiz xüsussiyyətlər" silsiləsində bu dəfə çox adamın bacarmadığından yazmaq istədim - dinləmək mədəniyyətindən.

Böyüklərimiz həmişə öyüdlərində dinləmənin gözəl xüsusiyyət olması ilə bağlı danışıb, biz tərbiyə alarkən başqaları, xüsusən də böyüklər danışanda qulaq asa bilməyin ən nümunəvi davranış olduğunu öyrənmişik həm də. Atalar sözlərimizdə, hikmətli sözlər arasında susmaqla, dinləməklə, qulaq asa bilməklə bağlı çox məsəllərimiz var ki, o məsəllərin işığında böyümüşük hamımız. "Danışmaq gümüşdürsə, susmaq qızıldır", "Söz var can qurtarar, söz var can yandırar - dinləmədən cavab vermə", "Eşidən qulaq, görən göz qədər dəyərlidir", "Söz deməzdən əvvəl ölç, dinləmədən danışma", "Dinləməyən, səhv danışar", "Yaxşı qulaq asmaq da elm öyrənməkdir", "Kimin ki qulağı var, onun ağlı da var" kimi çox məsəl çəkmək olar.







Dinləmək mədəniyyətdir və ən təməl mədəni qaydalardan biridir. Qarşısındakı insanı dinləməyi bacaran insan sayı azdır. İndi hamı danışır, hamı izah edir. Dinləyən, sözün həqiqi mənasında qulaq asmağı bacaran insanların sayı danışanların sayından qat-qat azdır. Dinləmək sadəcə səssiz-səmirsiz qalıb qarşıdakına qulaq asmaq deyil, dinləmək həm də həmsöhbətinin hissini, düşüncəsini, niyyətini, emosiyalarını anlamaq bacarığıdır. Ən empatiyalı insanların həm də yaxşı dinləyici olduğunu bilirdinizmi?

Dinləmək hörmətdir, qarşı tərəfə bəslənən hörmətin ən saf, ən təməl formasıdır. Əgər insan dinləmə bacarığına sahibdirsə o həmin an öz eqosunu, ambisiyalarını bir kənara qoyur. Əgər insan dinləməyi bacarırsa o öz "mən"ini bir kənara qoyub qarşısındakı insanın "mən"ini dinləyir.

Dinləmək səmimiyyətdir. Sadə görürən, amma olduqca mürəkkəb olan səmimi mədəniyyət nümunəsidir. Dinləməyi bacaran insanların münasibətləri davamlı, dostluqları səmimi olur. Dinləyən bir dost xəzinə misalıdır. Amma dinləyib mühakimə etməyi, danışılanlardan özünə "silah" yığmağı hədəfləyənlərdən dost olmaz.

Dinləməyi, dinlətməyi ən təməldən öyrətmək lazımdır insanlara - hələ körpə ikən. Onu dinləyən, diqqətlə qulaq asan valideynlərlə böyüyən uşaqlar daha özünəinamlı, empatiyalı, mərhəmətli xarakterə sahib olurlar. Valideynini dinləmə adəti də elə o yaşlarda yaranır. Uşaqlar onu dinləyən valideynini dinləməyi özlərinə borc bilirlər: münasibətlər qarşılıqlıdır axı.

İndi bir-birini dinləməyən insanlarla, ailələrlə, dostluqlarla, ittifaqlarla doludur cəmiyyət. Nə ər avadını dinləyir, nə arvad ərə qulaq asır. Nə ata övladını dinləyir, nə övlad atanı eyninə alır. Nə şagird müəllimi dinləyir, nə şagird müəllimə əhəmiyyət verir. İndi hamıya görə öz fikri doğrudur, hamı özünü haqlı hesab edir, hamının doğrusu hamı üçündür.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması “ istiqaməti çərçivəsində hazırlanıb*







Münasibətlər əslində münaqişələrdən yox, dinləmə bacarığının olmaması səbəbindən pozulur. Ailələr o zaman boşanmaya gedir ki, artıq həmsöhbət ola bilmirlər, ər və arvad bir-birinə qarşı ifrat dözümsüzdürlər, çünki biri danışanda digəri ona qulaq asmır. Dinlənilməyən qadının, sözünə qulaq asılmayan kişinin ailəsinə əhəmiyyət verməməsi həm də bu cür münasibətin faciəvi sonlanmasının bariz səbəbi deyilmi?

Dinləmək empatiyadır. İnsan başqasını dinlədikcə onun dünyasına daxil olur, duyğularına. Düşüncələrinə səyahət edir, dinlədikcə insan həm də öz sərhədlərini genişləndirir. Empatiyalı doğulmur insan, empatiyanı münasibətlər zamanı öyrənirik. Dinlədikcə, səbrlə qulaq asdıqca həm də empatiya hissimiz boy atır.

Dinləmək səbrdir. Səbrsiz, aqressiv insanların zəmanəsində belə bir özəlliyə sahib olmaq da hər birimizə qismət olmur. Həmsöhbətinin nə demək istədiyini səbrlə dinləyən nə qədər insan tanıyırıq ki? Yaxud, ən son nə zaman kiminsə səbrlə dayanıb dinləmişik?

Dinləmək nəzakətdir. Ədəb-ərkan qaydalarının ən vacib bəndi olan nəzakəti harada, necə göstərmişik ən son? Həvəslə söhbət edən, hansısa əhvalatı nəql edən birini ən son nə vaxt nəzakətlə dinləmişik? Sözün həqiqi mənasında danışdıqlarına maraq göstərmişik?

Dinləmək həm də öyrənməkdir. Başqalarının həyat təcrübələrini, səyahət xatirələrini, yaxşı və ya pis hadisələrdən çıxardığı dərsləri dinləyə-dinləyə nələr öyrənməmişik ki biz? Təbii ki, dinləməyi həm də öyrənmək hesab edənlərdən danışıram.

Dinləmək müdriklikdir. Yalnız aqil adamlar dinləməyi, qulaq asmağı sevirlər. Fərqindədirlər, insan nə qədər çox dinləyirsə bir o qədər çox kamilləşir. Söz kəsmədən, irad bildirmədən, səhv tutmadan qulaq asa bilmək həm də kamilləşmək demək deyilmi?

Düşünün, ən son nə zaman kamilləşmisiniz?

Ən son kimi canı-könüldən dinləmisiniz?

***Lalə Mehralı***

SƏS
23 oktyabr
2025-ci il

# 7 illik güzəşt müddəti bitir: bəs vergi faizi nə qədər olacaq?



## İQTİSADÇI AÇIQLADI

"Qeyri-neft sektorunda çalışanlarda əmək haqqının gəlir vergisi hissəsində 8-10 manata qədər hər hansı bir ödəniş tətbiq olunmurdu, yəni vergi güzəşti tətbiq olunurdu. Bu güzəşt də, 2025-ci ilin sonuna qədər qüvvədədir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Asif İbrahimov deyib. Onun sözlərinə görə, hər hansı bir mexanizm tətbiq edilməzsə, 2026-cı ilin əvvəlindən neft sektorunda olan mexanizmlər qeyri-neft sektoruna da tətbiq olunacaq: "Əgər bu güzəştlər uzadılmasa, əmək haqqının gəlir vergisi hissəsində tətbiq olunan güzəştlərin qüvvədən düşməsi bir sıra sahələrdə bahalaşma və inflyasiya ilə nəticələnə bilər. Əvvəllər əməkhaqqı məsələsində işəgötürən və işçi müəyyən məbləğ üzərində razılaşırdı. Vergi və sosial ödənişlərin bir hissəsi işçinin maaşından, bir hissəsi isə işəgötürən tərəfindən ödənilirdi. Təşkilat bir növ agent funksiyasını daşıyırdı - yəni həmin ödənişləri tutur və aidiyyəti qurumlara yönəldirdi. Əməkdaş isə əsasən net maaşla maraqlanırdı. Əgər bu güzəştlər aradan qalxarsa, bəzi sahibkarların işçilərin gəlirlərini gizlətmək cəhdləri arta bilər. Bu kimi hallar əvvəllər də müşahidə olunmuşdu. Bunu tənzimləmək üçün konkret mexanizmlər tətbiq olunmalıdır. Dövlət qurumları isə bu güzəştlərin müddətinin bitməsinə bir-iki ay qalsa da hələ də rəsmi açıqlama verməyiblər. Düşünürəm ki, artıq bu məsələ ilə bağlı açıqlama verilməsinin vaxtı çatıb".

*Arzu Qurbanlı*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Türkiyəli aktrisa bu avtomobilə görə 30 milyon ödədi!




Türkiyəli aktrisa Hande Erçel bahalı avtomobili ilə gündəmə gəlib. Axşam.az xəbər verir ki, aktrisa yeni maşınını almaq üçün 30 milyon lirəsindən (1,2 milyon manat) keçib. Qeyd edək ki, Hande son olaraq reytinq toplamayan "Aşk ve gözyaşı" serialında çəkilib.

# "Uşaqların sinir sistemi süni qatqılara həssasdır"



"Süni qatqılar (E kodlu maddələr, konservantlar, dadvericilər, rənglər və s.) əsasən qidanın rəngini, dadını, teksturasını və saxlanma müddətini yaxşılaşdırmaq üçün istifadə olunur". Bu sözləri SİA-ya açıqlamasında qida mühəndisi, nutrisioloq Fərid Səfərov deyib.

Onun sözlərinə görə, lakin bu qatqılar insan orqanizminə həm qısamüddətli, həm də uzunmüddətli zərər verə bilər: "Süni rəngləndiricilər bəzi uşaqlarda hiperaktivlik, diqqət dağınıqlığı və davranış dəyişiklikləri ilə əlaqələndirilir. Buna görə bir çox ölkələrdə süni rəngləndiricilər uşaq məhsullarında ya qadağan olunub, ya da xəbərdarlıqla satışa buraxılır. Süni konservantlar orqanizmdə toplanaraq qaraciyər və böyrəklərə əlavə yük gətirir, qaraciyərin detoksifikasiya sisteminə mənfi təsir göstərə bilər. Eyni zamanda, E123, E127, E102 kimi bəzi boyalar laboratoriya testlərində hüceyrə mutasiyalarına səbəb olmuş, nitritlə zəngin kolbasa, sosiska və hisə verilmiş ətlərdə isə mədə və yoğun bağırsaq xərçəngi riski artmışdır.

Süni rənglər və dadvericilər, xüsusən monosodyum glutamat (E621), bəzi insanlarda baş ağrısı, dəridə səpki, şişkinlik və astma tutmalarına səbəb ola bilər. Bəzi qatqılar (məsələn, BHA - E320 və BHT - E321) endokrin sisteminə müdaxilə edərək orqanizmin təbii hormon balansını poza bilər və uzun müddətdə maddələr mübadiləsini ləngidərək piylənmə və insulin müqaviməti riskini artırır. Süni qatqılar təbii qidanın görünüşünü saxta şəkildə yaxşılaşdırır, lakin mikronutrientlərin azalmasını gizlədir. Məsələn, "təzə kimi" görünən çörəkdə vitamin və lif miqdarı demək olar ki, sıfıra enmiş ola bilər.

Buna görə etiketləri diqqətlə oxumaq, "E" kodlarına fikir vermək vacibdir. Rəngi çox parlaq olan məhsullardan uzaq durmaq lazımdır, çünki təbii rəng bu qədər parlaq olmaz. Təbii alternativlər seçmək tövsiyə olunur: qırmızı üçün çuğundur tozu, sarı üçün sarıkök, yaşıl üçün ispanaq kimi. Uşaqlar üçün nəzərdə tutulmuş süni rəngli içkilərdən və konfetlərdən uzaq durmaq xüsusilə önəmlidir, çünki uşaq sinir sistemi daha həssasdır".

*Günel Fərzəliyeva*

## BAŞSAĞLIĞI

Sumqayıt Dostlar Klubu idarə heyyətinin üzvləri, məşhur həkim, Tibb üzrə fəlsəfə doktoru, həkim-travmatoloq, qırx il Sumqayıt şəhərindəki Təcili Tibbi Yardım Xəstəxanasındakı travmatologiya şöbəsinin müdiri olmuş

**Cəbrayıl Əlinağıyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə, yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

***

Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının kollektivi direktor, texnika elmləri doktoru Hüseyn Hüseynova və ailəsinə qayınatası texnika elmləri üzrə fəlsəfə doktoru

**Xəlil Nəbiyevin**

Vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3000